12 aprel 2023 №27 (1996) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Teatr Forumu: 150 yaşlı Azərbaycan peşəkar teatrının inkişaf perspektivləri müzakirə olunur

Ümummilli lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri çərçivəsində 11-12 aprel tarixlərində Bakıda Teatr Forumu keçirilir.




"Azərbaycan teatrı – 150: inkişaf perspektivləri" mövzusuna həsr olunan forum Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) iştirakı ilə gerçəkləşir.

Aprelin 11-də forumun açılışından öncə teatr ictimaiyyətinin nümayəndələri Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi, məzarı önünə əklil və gül dəstələri qoydular.

Sonra Teatr Forumu Heydər Əliyev Mərkəzində öz işinə başladı.

Mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli açılış nitqi ilə çıxış etdi: "Biz milli teatrımızın çağdaş inkişaf perspektivlərinin müzakirə olunacağı çox əhəmiyyətli bir tədbirdə görüşürük. Bilirsiniz ki, tədbir 10 aprel tarixinə nəzərdə tutulmuşdu. Lakin görkəmli teatr rejissoru, Xalq artisti Azər Paşa Nemətovun vəfatı ilə əlaqədar forumun vaxtı dəyişdirildi. Teatr sənətimizdə böyük xidmətləri olan sənətkarı dərin ehtiramla anırıq. Həmçinin milli peşəkar teatrımızın əsasını qoyan, onun sonrakı inkişafına töhfələr verən ziyalılarımızı, incəsənət xadimlərimizi rəhmətlə, minnətdarlıqla yad edirik".

Forumun Heydər Əliyev Mərkəzində keçirilməsinin təsadüfi olmadığını bildirən Adil Kərimli qeyd etdi ki, Ulu öndərimizin 100 illik yubileyi münasibətilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olunub. Bununla bağlı həm ölkəmizdə, həm də xaricdə silsilə tədbirlər, layihələr həyata keçirilir. İlk teatr forumunun da bu əlamətdar ildə keçirilməsi böyük əhəmiyyət kəsb edir: "Mədəniyyətə, sənətə bağlı bir ömür yaşayan Ümummilli lider Heydər Əliyev bu sahədə çalışanları hər zaman diqqət və qayğı ilə əhatə edib. Ulu öndər mədəniyyətin əsas sahələrindən olan teatra xüsusi münasibətlə yanaşıb, bu sahədə fəaliyyət göstərənləri hər zaman yüksək qiymətləndirib, səhnəni "müqəddəs yer" kimi səciyyələndirib. Çünki Heydər Əliyev teatr sənətinin məna və mahiyyətini, ideya-estetik təsirini dərindən duyurdu".

Qeyd edildi ki, Ulu öndərin siyasi xəttinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün mədəniyyətimiz, o cümlədən teatr sahəsi qayğı ilə əhatə olunub. Prezidentin diqqəti sayəsində mədəniyyət sahəsinin dayanıqlı inkişafı, mədəniyyət xadimlərinin olması vəziyyətinin yaxşılaşdırılması üçün mütəmadi tədbirlər görülür. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən azad edilən əzəli yurd yerlərimizdə 30 illik işğal zamanı erməni vandallarının dağıtdığı, talan etdiyi mədəniyyət ocaqları dövlətimiz tərəfindən sürətlə bərpa olunur. Eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı və dəstəyi ilə Azərbaycan mədəniyyətinin dünyada təbliği istiqamətində də mühüm işlər görülür. Mədəniyyətimiz və bu sahədə çalışan insanlar hər zaman Mehriban xanımın diqqəti ilə əhatə olunub.

*davamı səh. 3-də*

## Qarşılıqlı mədəniyyət günləri xalqlarımızı daha da yaxınlaşdıracaq



Ölkələrimiz arasında humanitar əlaqələr möhkəmlənir. Burada bizim milliyyətcə azərbaycanlı olan 130 min vətəndaşımız əsas əlaqələndirici vəsilə kimi çıxış edir və onların kiçik bir hissəsi bu gün görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfinə adlandırılmış küçənin açılışında iştirak edəcək. İki ölkənin mədəniyyət günlərinin keçirilməsi barədə razılaşmanı xüsusi vurğulamaq istəyirəm. Qazaxıstan mədəniyyəti günləri artıq bu il keçiriləcək.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bu sözləri aprelin 10-da Astanada Azərbaycan Prezidenti İlham Əliyevlə geniş tərkibdə görüşdə deyib.

Dövlət başçısı Qazaxıstan Teleradio Korporasiyası tərəfindən Heydər Əliyev haqqında "Əziz ömür – Görkəmli həyat" adlı sənədli filmin çəkildiyini də diqqətə çatdırıb. Qeyd edək ki, film ilk dəfə aprelin 10-da "Qazaxıstan" kanalında nümayiş olunub.

Qazax xalqının Azərbaycana hədiyyəsi – Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin tikintisinin də yaxın vaxtlarda yekunlaşacağını deyən Prezident Tokayev bunun ölkələrimizin səmimi dostluğuna və qarşılıqlı dəstəyinə daha bir parlaq sübut olduğunu vurğulayıb: "Biz bundan sonra da hərtərəfli humanitar əlaqələri hər vasitə ilə inkişaf etdirmək, ortaq mənəvi-mədəni dəyərlər xəzinəsini zənginləşdirmək əzmindəyik".

Görüşdə çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, xalqlarımız arasında münasibətlərin böyük tarixi var və bu münasibətlər həmişə qardaşlar arasındakı kimi olub.

*davamı səh. 2-də*

## Ermənistan sərhəddə yenə təxribat törədib

### Qarşı tərəfin atəş mövqeləri susdurulub, üç hərbi qulluqçumuz şəhid olub

Aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutmaqda davam edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub.

Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib.

Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olub.

Aprelin 11-də sərhəddə baş verən təxribatla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi də məlumat yayıb.

"Ermənistanın bu kimi təxribatlarının beynəlxalq ictimaiyyət tərəfindən sülh sazişi üzrə danışıqlara ciddi çağırışlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir. Ermənistanın bu kimi hərbi təxribatları, eyni zamanda, siyasi təhrikçi addımlarla və bəyanatlarla müşayiət olunur. Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımi tədbirləri görür və bundan sonra da görəcəkdir", – deyə məlumatda bildirilir.

## Uşaq İncəsənət Festivalının ilk mərhələsi başlanır

### Şəhər və rayonlardan 26 768 nəfər qeydiyyatdan keçib

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi Uşaq İncəsənət Festivalının birinci mərhələsi aprelin 17-də başlanacaq.

Qeydiyyatdan keçmiş hər bir şəxs bu mərhələdə iştirak etmək üçün aprelin 10-dan festivalın rəsmi internet portalı olan www.uif.az saytına daxil olaraq "I Mərhələ" bölməsinə keçid etməklə qeydiyyat kodunu və ya FİN nömrəsini yazmaqla festivalda iştirakının müəyyən edilən vaxtı və məkanı haqqında məlumat ala bilər.

Gələrkən şəxsiyyəti təsdiq edən sənəd və iştirak məlumatlarının çap olunmuş formatını götürmək lazımdır. Qeyd edilən məkana vaxtından 15 dəqiqə əvvəl gəlməyiniz xahiş olunur.




Xatırladaq ki, respublikamızda müstəqillik dövrünün ən irimiqyaslı incəsənət layihəsində iştirak üçün şəhər və rayonlardan ümumilikdə 26 768 nəfər qeydiyyatdan keçib. İştirakçıların qeydiyyatı 20 fevral – 30 mart tarixlərində www.uif.az internet saytı üzərindən aparılıb.

Festival 21 nominasiyada peşəkar və həm də həvəskar kateqoriyalar üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) keçiriləcək. Üç mərhələdə nəzərdə tutulan festivalın I mərhələsi aprel-iyun aylarında keçiriləcək. Bu mərhələdə qalib olanlar festivalın II mərhələsində iştirak hüququ qazanacaqlar.

Festivalın II mərhələsi iyun-avqust aylarında reallaşacaq. Bu mərhələnin qalibləri final mərhələsində iştirak hüququ əldə edəcəklər.

Final mərhələsi isə sentyabr ayında Bakıda keçiriləcək. Finalın yeri, tarixi və vaxtı festivalın rəsmi internet portalında, eləcə də kütləvi informasiya vasitələrində elan olunacaq.

Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi hüququ qazanacaq.

## Səhnədə son mizan...

### Rejissor Azər Paşa Nemətov dünyadan köçdü



*səh. 4, 6*

## Şuşanın Türk dünyasının incisinə çevrilməsinə şahidlik edəcəyik

### Türkdilli ölkələrin təmsilçiləri mədəniyyət paytaxtımızda bir araya gəliblər

Çox məşhur mədəniyyət xadimləri yetişdirən qədim Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" olmasının nə qədər dəqiq qərar olduğunu burada bir daha gördüm. Bu şəhərdə ilboyu davam edəcək çoxsaylı tədbirlər, ümidvaram ki, tarixi dəyərlərimizin dirçəlməsinə, Şuşanın yenidən qurulması işlərinə də vəsilə olacaq. Mədəniyyət paytaxtı Şuşa buna layiqdir. Əminəm ki, yaxın gələcəkdə Şuşanın Türk dünyasında inciyə çevrilməsinə şahidlik edəcəyik.




Bu sözləri Şuşada türkdilli ölkələrin UNESCO üzrə milli komissiyalarının toplantısında iştirak edən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un baş katibinin müavini Bilal Çakıcı deyib.

Qeyd edək ki, TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu iclasının açılışı aprelin 7-də Bakıda, bağlanışı isə aprelin 8-də Şuşada keçirilib. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu tərəfindən təşkil edilən təlim proqramının iştirakçısı olan Benin, Niger, Toqo, Burkina Faso, Qvineya, Qabon, Cibuti, Kot-d'İvuar və Ekvatorial Qvineyanın UNESCO üzrə milli komissiyalarının baş katibləri də qonaq qismində tədbirə qatılıblar.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Şuşa şəhərinin erməni işğalı altında olduğu illərdə tarixi və mədəni irsimizə qarşı törədilmiş vandalizm aktları, şəhər azad edildəndən sonra Azərbaycan dövləti tərəfindən burada həyata keçirilən bərpa-quruculuq işləri ilə bağlı məlumat verib.

Tədbirdə Prezident yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədovun "Şuşa – Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı" kitabının təqdimatı da keçirilib.

Bağlanış mərasimindən sonra xarici qonaqlar Şuşa şəhəri ilə tanış olublar. Xalq artisti Mənsum İbrahimovun rəhbərliyi ilə "Qarabağ" muğam qrupunun konsert proqramı təqdim edilib. Proqramda xanəndələr Aytən Məhərrəmova və Sona Əzizova çıxış ediblər.

Qeyd edək ki, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutu və TÜRKSOY-un birgə təşkilatçılığı ilə gerçəkləşən toplantıda TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə milli komissiyalarına dönəm sədrliyi Azərbaycana keçib.

*mövzuya dair əlavə səh. 5-də*

BXA-da "Ən yaxşı təqdimat"



*səh. 5*

Bədii təhsil üzrə məktəb və mərkəzlərə işə qəbulla bağlı müsabiqə və müsahibələr keçiriləcək

*səh. 3*



Bakıda növbəti Uşaq Kitab Festivalı

*səh. 7*

# Astanada Heydər Əliyev küçəsi açılıb

## "Heydər Əliyev Türk dünyasını daha sıx birləşdirmək üçün əlindən gələni edirdi"

Aprelin 10-da Astanada Heydər Əliyev küçəsinin təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev açılış mərasimində iştirak ediblər.



Mərasimdə məlumat verilib ki, Qazaxıstan Prezidentinin tapşırığına əsasən, paytaxtın ən iri küçələrindən birinə Heydər Əliyevin adı verilib. Dördzolaqlı küçə Qazaxıstan paytaxtının Yesil rayonunda yerləşir. Küçənin uzunluğu 1400 metrdir. Heydər Əliyev küçəsində türk köklərinin ortaqlığını, mədəni dəyərlərin yaxınlığını və Azərbaycan xalqına hörməti vurğulayan monument ucaldılıb. Monumentin üzərindəki QR-kodu skanlamaqla Heydər Əliyevin həyatı haqqında daha çox məlumat əldə etmək olar.

Dövlət başçıları "Heydər Əliyev küçəsi" sözləri yazılan lövhənin üzərindən ağ örtüyü götürüblər.

Prezident Kasım-Jomart Tokayev deyib: "Bu hadisənin xüsusi rəmzi mənası var. Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək və qorumaq bizim borcumuzdur. Bu, Azərbaycan xalqının böyük oğluna bizim səmimi münasibətimizin və ehtiramımızın əlamətidir. Bu küçə Astana gənclərini və qonaqlarını cəlb edən yerdir. Küçə boyunca dünyada ən böyük sferik bina olan "Nur Aləm", Astana Balet Teatrı, Mərkəzi Botanika bağı, habelə şəhərin ən iri ticarət-əyləncə mərkəzi kimi mühüm obyektlər yerləşir. Qeyd etmək istəyirəm ki, bu küçənin açılışı Qazaxıstanda Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş bir sıra mühüm tədbirlərə start verəcək...

Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin təşəkkülünə və möhkəmlənməsinə Heydər Əliyev çox qiymətli töhfələr verib. Biz yaxşı xatırlayırıq, o, qazaxlar haqqında həmişə səmimi sözlər deyir, bizim soykökümüzün və irsimizin ortaq olmasını vurğulayırdı. Heydər Əliyev deyirdi ki, xalqlarımızın dərin tarixə gedib çıxan kökləri qazax və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərin əsasıdır. Həm qazaxlar, həm də azərbaycanlılar üçün tarix mürəkkəb olub. Lakin bütün çətinliklərə baxmayaraq, xalqlarımız həmişə bir-birini dəstəkləyib, həmişə hiss edib və başa düşüblər ki, onlar eyni köklərə mənsubdurlar. Bu sözlər 1997-ci il iyunun 10-da deyilib. Ölkələrimiz arasında müasir möhkəm və ahəngdar qarşılıqlı münasibətlər bu sözləri təsdiq edir. Bu münasibətlər strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edir".

Bu tarixi mərasimə görə Kasım-Jomart Tokayevə təşəkkürünü bildirən Azərbaycan Prezidenti deyib: "Heydər Əliyev bizə onun işlərini davam etdirməyimizi vəsiyyət edib. Onun əsas vəsiyyəti ondan ibarət idi ki, biz torpaqlarımızı işğaldan azad etməli, ərazilərimizi özümüzə qaytarmalı, Azərbaycan xalqının ləyaqətini bərpa etməliyik. Biz onun xatirəsinə, vəsiyyətlərinə sadiqik, onun bütün tapşırıqlarını şərəflə yerinə yetirmişik. Bu gün, Ulu öndərin 100 illik yubileyi ərəfəsində inamla deyə bilərik ki, onun düşündüklərinin hamısı reallaşıb.

Kasım-Jomart Kemeleviç dedi ki, Heydər Əliyev qardaş qazax xalqına xüsusi münasibət və sevgi bəsləyirdi. Bu, həqiqətən belədir, mən bunun şahidiyəm. O, qazaxların ənənələrini, adətlərini yaxşı bilir, qazax xalqının mədəniyyətinə, onun çoxəsrlik tarixinə hörmət bəsləyir, qazaxlarla azərbaycanlıların qardaşlığını çox yüksək qiymətləndirirdi. O, Türk dünyasını daha sıx birləşdirmək üçün əlindən gələni edirdi. Bu gün biz onun işinin, fəaliyyətinin nəticələrini, o cümlədən bunda görürük ki, Türk dünyası birləşir. Biz bu gün beynəlxalq arenada böyük nüfuz sahibi olan güclü təşkilat yaratmışıq... Qazaxıstanın irəli sürdüyü və reallaşdırdığı təşəbbüslər, sözün geniş mənasında, Avrasiya məkanında etimad tədbirlərinin, sülhün möhkəmlənməsinə yönəlib. Biz də dostlar, qardaşlar kimi sizin uğurlarınıza ürəkdən sevinirik".

# Ümummilli liderin 100 illiyi ilə bağlı medal təsis edilir

## Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub

Milli Məclis Ümummilli lider Heydər Əliyevin yubiley medalının təsis olunması ilə bağlı qanun layihəsini üçüncü oxunuşda təsdiq edib.

"Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi parlamentin aprelin 11-də keçirilən plenar iclasında müzakirəyə çıxarılıb.

"Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"yə əsasən yubiley medalı ilə Heydər Əliyev irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə, dövlət quruculuğunda, o cümlədən milli azadlıq hərəkatında xüsusi xidmətlərinə, azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xidmətlərinə görə, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərinə, dövlət müstəqilliyinin qorunub saxlanılmasına və inkişafına, Azərbaycanın tərəqqisinə və şöhrətinin artmasına töhfə verən xidmətlərinə görə, həmçinin ölkənin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında xidmətlərinə görə, dövlət idarəçiliyində, dövlət qulluğunda və ictimai-siyasi sahədə səmərəli fəaliyyətinə görə fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri təltif oluna bilərlər.

Qanun layihəsinə əsasən, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda ordenlərdən sonra taxılır.

# Qarşılıqlı mədəniyyət günləri xalqlarımızı daha da yaxınlaşdıracaq

## "Qardaşcasına münasibətləri möhkəmləndirmək üçün mədəni-humanitar gündəliyimizi zənginləşdirməliyik"

***əvvəli səh. 1-də***

Prezident İlham Əliyev qeyd edib ki, bu gün gələcəyimizi bu möhkəm təməl üzərində qururuq: "Onu da qeyd etməyi zəruri sayıram ki, humanitar sahədə əməkdaşlıq birinci dərəcəli əhəmiyyət kəsb edir. Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri, Qazaxıstanda Azərbaycan mədəniyyəti günləri təşkil ediləcək. Bu, xalqlarımızı daha da yaxınlaşdıracaq, qədim tariximizi və mədəniyyətimizi daha da zənginləşdirəcək. Hesab edirik ki, məhz humanitar əlaqələr bizim dövlətlərarası münasibətlərin qurulmasının əsasıdır. Əlbəttə, qarşılıqlı maraq doğuran sahələr çoxdur. Biz, həqiqətən, qarşılıqlı fəaliyyətin müttəfiqliyin keyfiyyətcə yeni səviyyəsinə qədəm qoyuruq və bu, bu gün imzalanacaq Bəyannamədə artıq əks olunub. Beləliklə, biz ölkələrimizin və xalqlarımızın uğurlu birgə gələcəyini bir çox onilliklər qədər irəlicədən müəyyən edirik".

Dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.

Prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu" və dövlət başçılarının birgə bəyanatını imzalayıblar.

Bundan əlavə, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyəti arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu arasında elmi və mədəni əməkdaşlıq haqqında anlaşma memorandumları imzalanıb. Həmçinin Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Qazaxıstanın Xarici Ticarət Palatası arasında, Azərbaycan Milli Elmlər Akademiyası və Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası arasında, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə Qazaxıstan Respublikasının "Otandastar Fondu" arasında, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında memorandumlar imzalanıb.

***

Sənədlərin imzalanmasından sonra prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər. Hər iki bəyanatda vurğulanan əsas fikir qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi olub.

### Qazaxıstan Prezidenti: "Əməkdaşlıq üçün əsas sərvətimiz qardaşlıq münasibətləridir"

Bizim ortaq səylərimiz sayəsində son illərdə Qazaxıstan ilə Azərbaycan arasında münasibətlər daha açıq və hərtərəfli xarakter kəsb edib. Siyasi, ticari-iqtisadi, mədəni-humanitar əməkdaşlıq fəallaşıb. Yarım ildən bir qədər çox əvvəl biz strateji tərəfdaşlığın dərinləşdirilməsi və müttəfiqlik münasibətlərinin genişləndirilməsinə dair Bəyannamə, 2022-2026-cı illər üçün əməkdaşlığın inkişafına dair kompleks proqram və bir sıra başqa sənədlər imzaladıq. Hazırda bütün bu razılaşmalar ardıcıl olaraq həyata keçirilir.

Ötən ilin yekunlarına əsasən, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi yarım milyard dollara yaxınlaşıb. Lakin, əlbəttə ki, ticari-iqtisadi tərəfdaşlığın potensialı əsla tükənməyib. Biz ixrac-idxal malları nomenklaturunun daha da genişləndirilməsi üçün təsirli tədbirlər görmək barədə razılığa gəldik. Transxəzər beynəlxalq nəqliyyat marşrutunun, belə adlandırılan "Orta Dəhliz"in potensialının tam üzə çıxarılması böyük əhəmiyyət kəsb edir. 2022-2027-ci illərdə Orta Dəhlizin inkişafına dair yol xəritəsinin səmərəli reallaşdırılması da böyük əhəmiyyət kəsb edir. Biz razılaşdıq ki, bu marşruta artan maraqdan tam yararlanmaq və onun infrastrukturunun inkişafına üçüncü ölkələri cəlb etmək lazımdır. Bütün bu tədbirlər, habelə beynəlxalq tərəfdaşlarımızla sıx qarşılıqlı əlaqə Şərq-Qərb istiqamətində yüklərin çatdırılmasının sabitliyini və operativliyini təmin etməyə imkan verəcək.

Enerji resurslarının dünya bazarlarına çatdırılmasının daha da şaxələndirilməsi bu gün bizim prioritet vəzifəmizdir. Bildiyiniz kimi, bizim razılaşmalar sayəsində bu il Qazaxıstan neftinin ilk partiyası Azərbaycandan keçməklə göndərilib. Növbəti addım tədarük həcminin artırılması və bu işlərə uzunmüddətli sabit xarakter verilməsidir.

Biz iqtisadiyyatlarımızın yeni artım nöqtələri ola biləcək mütərəqqi investisiya layihələrinin reallaşdırılması üzərində ayrıca dayandıq. Sənaye, toxuculuq, aqrosənaye və tikinti sahələrində iri müştərək müəssisələrin açılması mümkündür. İnformasiya texnologiyaları sahəsində kooperasiyanın gücləndirilməsi perspektivli sahə kimi müəyyən edildi. Hazırda Xəzərin dibi ilə optik-lifli rabitə xətti çəkilməsi üzrə fəal iş aparılır.

Çoxşaxəli əməkdaşlığı möhkəmləndirmək üçün bizim əsas sərvətimizi – iki xalq arasında qardaşcasına münasibətləri qoruyub saxlamaq və möhkəmləndirmək vacibdir. Buna görə biz mədəni-humanitar gündəliyimizin keyfiyyətcə zənginləşməsinə hər vasitə ilə şərait yaratmalıyıq. Azərbaycanda Qazaxıstan Mədəniyyəti Günlərinin keçirilməsi bu ilin əlamətdar hadisəsi olacaq. Ölkəmizdə Azərbaycan mədəniyyəti günlərinin təşkil olunması barədə razılıq əldə edilib. Ayrıca qeyd etmək istəyirəm ki, bu il Qazaxıstanda Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin 100 illiyinə həsr olunmuş bir sıra xatirə tədbirləri keçiriləcək. Rəmzi haldır ki, bu tədbirlərə start verəcək hadisə bizim bu gün Astananın mərkəzində Azərbaycan xalqının şanlı oğlunun adını daşıyan küçənin açılışında iştirak etməyimiz olacaq. Bütün bu tədbirlər xalqlarımızın əbədi dostluğunun parlaq nümunəsi, Qazaxıstan-Azərbaycan münasibətlərinin inkişafına tarixi töhfə vermiş görkəmli dövlət xadiminə hörmət əlamətidir.

İki ölkənin gəncləri arasında təmaslar da bizim humanitar əlaqələrin möhkəmlənməsinə şərait yaradır. Media sahəsində qarşılıqlı fəaliyyət, kontent mübadiləsi qardaş xalqların daha da yaxınlaşmasına sanballı töhfə verə bilər. Bu gün müvafiq sazişlər imzalandı. Danışıqların gedişində Qazaxıstan telekanallarının Azərbaycan kabel operatorları şəbəkələrində yayımlanmasına, habelə animasiya filmlərinin distribusiyasına dair razılaşmaların reallaşdırılmasının vacibliyi qeyd edilib.

Bu gün beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi aparılıb. Qazaxıstan və Azərbaycan müxtəlif çoxtərəfli strukturlar çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət göstərir, bir sıra aktual beynəlxalq və regional məsələlərdə oxşar mövqelər tuturlar. Bu baxımdan qeyd etmək istəyirəm ki, Qazaxıstan ənənəvi olaraq Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı münasibətlərin diplomatik yollarla nizamlanmasının tərəfdarıdır, habelə tezliklər sülh müqaviləsi bağlanmasına dair səyləri alqışlayır.

Gördüyünüz kimi, müzakirə edilən məsələlərin dairəsi çox geniş olub. Azərbaycan ilə əməkdaşlıq Qazaxıstan üçün prioritet məsələ olub və olacaq. Biz bu əməkdaşlığı konkret məzmunla, konkret razılaşmalarla zənginləşdirmək üçün nə mümkündürsə edəcəyik.

### Azərbaycan Prezidenti: "Qardaşlıq münasibətləri üçün nə mümkündürsə edəcəyik"

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xatirəsinə hörmətə görə öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Biz bunu həm bizim Ulu öndərin xatirəsinə, həm də bütün Azərbaycan xalqına hörmətin, dostluğun, qardaşlığın əlaməti kimi qiymətləndiririk.

Həmçinin Qazaxıstan Prezidentinin işğaldan azad edilmiş Füzuli şəhərində qazax xalqının böyük oğlu Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması təşəbbüsünə görə təşəkkürümü bildirmək istərdim. Mərkəzin tikintisi artıq başlanıb. Bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir, Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Biz ölkələrimiz arasında çoxşaxəli əməkdaşlığı dərinləşdirmək və genişləndirmək əzmindəyik. Keçən ilin avqust ayında Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı Müttəfiqlik qarşılıqlı əlaqələrinin və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi haqqında Bəyannamə imzalandı.





Bugünkü Bəyannamə də əlaqələrimizin və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə yönəlib. Bu bəyannamələrin adlarının özü bizim münasibətlərimizin xarakterinə dəlalət edir. Bu, müttəfiqlər arasında münasibətlərdir. Təbii ki, bunun əsasını ölkələrimizin qardaş xalqları arasında çoxəsrlik tarixə malik olan qarşılıqlı əlaqələr, dostluq və əməkdaşlıq təşkil edir. Bu, bugünkü qarşılıqlı əlaqələrimizin əsas bazasıdır. Qazaxıstan ilə qardaşlıq münasibətləri əcdadlarımızın göstərişi, eləcə də həyati zərurətdir. Çünki Xəzər regionunda, Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda baş verən proseslər bizə regional təhlükəsizliklə bağlı məsələlərdən başlamış nəqliyyat, logistika, energetika, humanitar əməkdaşlıq, ekologiya ilə bağlı məsələlərə qədər bütün istiqamətlər üzrə əməkdaşlığı möhkəmlətməyi diktə edir.

Biz beynəlxalq təşkilatlar çərçivəsində də fəal qarşılıqlı əlaqə saxlayırıq, bütün məsələlərə dair bir-birimizi həmişə dəstəkləyirik və dəstəkləyəcəyik. Bu, uzun illər boyu bizim münasibətlərin səmimi xarakterini nümayiş etdirir.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində Qazaxıstanın mövqeyinə görə Prezident Tokayevə təşəkkür edirəm. Biz normallaşma əzmindəyik və İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağı təklif etdi. Praktiki olaraq bu iş başlanıb, amma bizim istədiyimiz kimi rəvan getmir. Lakin bunun alternativi yoxdur.

Qazaxıstanın məhz bizim regionda sülhün bərqərar olunmasına yönəlmiş prinsipial mövqeyi böyük hörmətə layiqdir. Qazaxıstanın beynəlxalq arenada nüfuzunu, ən mühüm qlobal məsələlərə dair ölçülüb-biçilmiş, prinsipial mövqeyini xüsusi qeyd etmək istərdim.

Öz tərəfimdən bir daha demək istərdim ki, Azərbaycanda sizin qardaşlarınız yaşayır, onlar sizə çox hörmət edir, sizi qiymətləndirirlər. Qazaxıstanın bizə münasibətdə əvvəllər də, bu gün də nümayiş etdirdiyi həmrəyliyə görə sizə çox təşəkkür edirik. Biz də öz tərəfimizdən qardaş Qazaxıstan xalqına həqiqi qardaşlıq hisslərini və münasibəti göstərmək üçün nə mümkündürsə edəcəyik.

əvvəli səh. 1-də

# Teatr Forumu: 150 yaşlı Azərbaycan peşəkar teatrının inkişaf perspektivləri müzakirə olunur

“Məqsədimiz problemləri peşəkarlarla birgə müzakirə edib vahid platforma yaratmaq, düzgün həll yolları müəyyən etməkdir”






Teatr sahəsinə dövlət qayğısından danışan Adil Kərimli bildirdi ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramı” çərçivəsində paytaxtda və bölgələrdə fəaliyyət göstərən dövlət teatrlarının əksəriyyətinin binası əsaslı təmir-bərpa olunub, maddi-texniki bazaları möhkəmləndirilib.

Forum haqqında söz açan nazirin birinci müavini teatr sahəsinin daim inkişaf etməsi, yenilənməsi, dövrün çağırışlarına cavab verməsinin vacibliyini vurğuladı, bu sahədə kadr hazırlığının əhəmiyyətini diqqətə çatdırdı: “Teatr sahəsində əsaslı inkişafın təməli cari vəziyyətin düzgün təhlil edilməsi, problemlərin üzə çıxarılaraq sistemləşdirilməsi və bunların əsasında düzgün həll yollarının müəyyən edilməsidir. Forumun da əsas məqsədi bu sahənin peşəkarlarını bir araya gətirərək problemləri birgə müzakirə etmək və vahid platforma yaradılmasıdır”.

O da diqqətə çatdırıldı ki, aprelin 20-21-də Bakıda Kino Forumu keçiriləcək. Daha sonra isə Mədəniyyət Forumu təşkil olunacaq, bu sahənin problemləri sistemli şəkildə təhlil ediləcək. Aparılan fikir mübadilələri və müzakirələr əsasında toplanan təkliflər Mədəniyyət Nazirliyi tərəfindən hazırlanan Azərbaycan mədəniyyətinin 2040-cı ilədək inkişafı ilə bağlı strategiyada nəzərə alınacaq.

Qeyd olundu ki, Teatr Forumunda “Mədəniyyət Könüllüləri” İctimai Birliyi də fəaliyyətə başlayıb. Adil Kərimli mədəniyyət könüllülərinə uğurlar arzuladı.

Nazirin birinci müavini çıxışının sonunda forumun ərsəyə gəlməsində əməyi keçənlərə, o cümlədən öz tövsiyələrini heç zaman əsirgəməyən Prezidentin köməkçisi Anar Ələkbərova və Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyevaya, teatr xadimlərinə, iştirakçılara təşəkkürünü bildirdi, tədbirin işinə uğurlar arzuladı.

***

Sonra teatrşünas, Əməkdar incəsənət xadimi, professor Məryəm Əlizadənin “Heydər Əliyev və Azərbaycan teatrı” mövzusunda məruzəsi dinlənildi. O, 1969-cu ildə respublikamızın rəhbərliyinə gəlişindən sonra hər zaman teatra böyük sevgi ilə yanaşan Heydər Əliyevin bu sahədə çalışanlara göstərdiyi diqqətdən söz açdı. Ulu öndərin premyeralara gəlişi, səhnə arxasında yaradıcı heyətlə görüşlərini xatırladan teatrşünas gəncliyində Heydər Əliyevin dram dərnəyinə üzv yazıldığını dedi, onun teatr sevgisinin də buradan qaynaqlandığını diqqətə çatdırdı: “Dram dərnəyində baş rolları oynayan Ulu öndərə tale sonra həyatda hər zaman baş rol yazdı…”.

Sonra “Azərbaycan teatrı: dünən, bu gün, sabah” adlı videoçarx nümayiş olundu. Videomaterialda Heydər Əliyevin teatr xadimləri ilə görüşləri, Prezident İlham Əliyevin teatr məkanlarının açılışında iştirakı və teatr ictimaiyyəti ilə görüşlərindən kadrlar əks olunmuşdu.

***

Forum işini “Azərbaycan teatrında ənənələr və trendlər”, “Milli teatrda müasir rejissor və aktyor sənəti: yenilənmə prosesində sistemli yanaşma” adlı panellərlə davam etdirdi.

**L.Azəri**




# Sözümüzün canı teatrdır

Forumda müasir Azərbaycan səhnəsinin problemləri diqqət mərkəzinə çəkilir

Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin iştirakı ilə “Heydər Əliyev İli” çərçivəsində keçirilən “Azərbaycan teatrı – 150: inkişaf perspektivləri” mövzusunda Teatr Forumunun rəsmi açılışından sonra aprelin 11-də iki panel iclası keçirildi.

Birinci panel müzakirə “Azərbaycan teatrında ənənə və trendlər” mövzusuna həsr olunmuşdu. Bu başlıq altında “Azərbaycan teatrının inkişafında yeni hədəflər”, “Müasir milli dramaturgiyanın inkişaf tendensiyaları” və “Müasir teatr tənqidinin funksiyası” mövzuları müzakirə üçün seçilmişdi.

Yazıçı-dramaturq, “Qobustan” jurnalının baş redaktoru Pərvin Nurəliyevanın moderatoru olduğu paneldə əsas hədəf teatrın əsas sütunu olan aktyor-rejissor məsələsi idi.

Teatrşünas, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli çıxışında teatrlar, onların repertuar siyasəti, idarəetmə sistemi, eləcə də aktyorların rifah halının yaxşılaşdırılması, sənət ocaqlarının maddi-texniki bazalarının vəziyyəti ilə bağlı fikirlərini bölüşdü. O, kadr siyasəti, dramaturqlarla iş, ümumən cəmiyyətdə teatra münasibət ətrafında teatr ictimaiyyəti üçün maraqlı görünən və alqışlarla qarşılanan bir sıra fikirlər səsləndirdi, eyni zamanda teatrla bağlı ayrıca jurnalın təsis olunmasının vacibliyini bildirdi.

Yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirli müasir dramaturgiya və onun inkişaf tendensiyalarından, gənc dramaturqlar üçün özünüifadə məkanının məhdudluğundan, teatrlarla dramaturqlar arasında sistemli rabitənin vacibliyindən söz açdı. Müasir tamaşaçının zövq və tələbinə uyğun pyeslərin yazılması, gənclərin dramaturgiyaya marağının artırılması, yeni əsərlərin teatr səhnələrinə yol tapması üçün müəyyən stimulverici addımların əhəmiyyətini qeyd edən dramaturq bu sahədə müsabiqə xarakterli tematik pyes müzakirələrinin aparılmasının önəmini vurğuladı.

Teatr-tamaşaçı münasibətlərinə nəzər salan Əməkdar incəsənət xadimi, Mədəniyyət və İncəsənət Universitetinin professoru Aydın Talıbzadə teatr tənqidinin yeni tendensiyaları haqqında fikirlərini bölüşdü. Teatrşünas tamaşaçı rəyi, onun zövq və tələbinin ilk sırada olmasının teatrın əsas ideyasına uyğun əsərlərdən çox cari, birbaşa bazar iqtisadiyyatının tələbləri ilə ayaqlaşmaq məcburiyyətinə diqqət çəkdi: “Teatr, ilk növbədə öz hədəf auditoriyasını müəyyənləşdirməli, gənc və yaşlı nəsil tamaşaçılar arasında bu sahədə effektiv təbliğat aparılmalıdır”.

Teatr və tamaşaçı, milli teatrımızın inteqrasiyası və yeni səhnə meyilləri mövzusunda danışan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə yeni hədəflərə nəzər saldı. Gənc rejissorların özünüifadə imkanlarının məhdudluğuna diqqət çəkən M.Ələkbərzadə onların rejissor vərdişlərini praktiki qavramaları üçün hələ təhsil aldıqları ali məktəbdə şərait yaradılmasının zəruri olduğunu dedi.

Qeyd olundu ki, yeni formaların tətbiqi üçün istedadlı, bacarıqlı və yeni meyillərə adekvat truppalar vacibdir. Bundan əlavə, hər teatrda rejissorlar üçün yaradıcılıq studiyalarının olması işin effektivliyini artırar. Teatrların öz auditoriyası, spesifik yanaşması, estetikasının formalaşması da şərtdir.

Yazıçı-dramaturq, Azərbaycan Yazıçılar Birliyinin yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi çıxışında problemlər və onların səbəblərinə toxundu. O, yaradıcı insanlar arasında rabitənin zəifliyinə, onların özlərini ifadə etməsi üçün yalnız məhdud çevrə ilə hesablaşmalarından təəssüflə danışdı. Ələlxüsus da gənc nəsillər arasında səhnə profilləri üzrə rabitənin yox səviyyəsində olmasının ciddi problemdən xəbər verdiyini dedi, bu mənada səmərəli birgə təşəbbüslərin faydalı olacağını dilə gətirdi.

Dramaturqun teatrda yetişdiyini yada salan natiq yeni müəlliflərin də rejissorlarla əməkdaşlıq əlaqələrinin qurulmasının prosesi yalnız irəli apara biləcəyini dedi. İ.Fəhmi gənc ssenarist və dramaturqlar üçün müsabiqələrin də önəminə diqqət çəkdi. Kommersiya teatrı məsələsini də diqqət mərkəzinə gətirən yazar müstəqil teatrların fəaliyyəti üçün şərait yaradılmasının, onların sırasının genişlənməsinin ümumi prosesə xeyir verəcəyinə əminliyini ifadə etdi.

Dramaturq İsmayıl İman isə həmkarlarının yetərli təqdimat meydanının olmamasını diqqətə çatdırdı. Qeyd etdi ki, teatrlar gənc və yerli dramaturqlardan əsər almır, rejissorlar isə, əsas etibarilə, klassik nümunələrə meyil edir. Bu da nəticə etibarilə yeni mövzulu, yeni düşüncə və zövqlü əsərlərin geniş auditoriyaya çatmaması deməkdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Cəfərov diqqəti informasiya cəmiyyətində piar məsələsinə yönəltdi. Dedi ki, teatrlar öz təbliğatlarını qurmaq üçün bu məsələyə ciddi yanaşmalıdır. Onun fikrincə, teatrın öz məhsulunu tamaşaçısına uyğun və dolğun çatdırması özlüyündə teatrın davamlı tamaşaçı təminatına zəmanətdir.

Müzakirə sual-cavab, iştirakçıların təklif və mülahizələri ilə davam etdi.

Xalq artistləri Afaq Bəşirqızı, Əli Nur, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru Əməkdar mədəniyyət işçisi İftixar Piriyev, eləcə də ayrı-ayrı teatrların təmsilçiləri onları narahat edən mövzularda fikirlərini bölüşdülər, vacib saydıqları məqamları diqqət mərkəzinə gətirdilər.

**Həmidə**

# Teatrda rejissor və aktyor sənəti:
## yenilənmə prosesində sistemli yanaşma




“Azərbaycan teatrı – 150: inkişaf perspektivləri” mövzusunda Teatr Forumu aprelin 11-də günün ikinci yarısında öz işini “Milli teatrda müasir rejissor və aktyor sənəti: yenilənmə prosesində sistemli yanaşma” mövzusunda panel iclası ilə davam etdirdi.

Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru Əməkdar artist Elnur Kərimovun moderatorluğu ilə keçən iclasda “Müasir teatrda universal aktyor tipi” və “Müasir rejissurada yeni təmayüllər” mövzularında çıxışlar dinlənildi.

Foruma məruzəçi kimi dəvət olunan Rusiya Teatr Sənəti İnstitutunun (GİTİS) rektoru Qriqori Zaslavski teatr prosesində qlobal problemlər, teatr menecmenti mövzusunda fikirlərini bölüşdü, rəhbərlik etdiyi təhsil ocağı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti arasında əlaqələrdən söz açdı.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Dövlət Teatrları İdarəsinin baş direktoru Mustafa Kurt isə yerli müəlliflərin Avropada təbliği ilə bağlı görülən işlərdən danışdı. Dedi ki, Türkiyə teatrlarında repertuarda yer alan tamaşaların 60 faizi yerli müəlliflərin əsərlərindən ibarət olur. O, həmçinin hazırda nəinki Türkiyədə, eləcə də bütün dünyada dramaturq-yazar baxımından problem yaşandığını diqqətə çatdırdı.

GİTİS-in kafedra müdiri Elşən Məmmədov teatr-tamaşaçı, mövzu-repertuar və təhsil mövzusunda fikirlərini bölüşdü.

Azərbaycan Dövlət Pantomima Teatrının bədii rəhbəri Xalq artisti Bəxtiyar Xanızadə teatrın bugünkü vəziyyəti, gənc aktyorların təhsil proqramı, peşəkar aktyor və rejissorların yetişməsi problemlərinin həlli yollarından bəhs etdi.

Xalq artisti (Akademik Milli Dram Teatrı) Nurəddin Mehdixanlı teatrda düzgün idarəetmə sistemi, ali məktəblərdə rejissor və aktyor təhsilində ixtisas fənlərinin artırılması təklifləri ilə çıxış etdi.

Azərbaycan Dövlət Yuğ Teatrının baş rejissoru Mikayıl Mikayılov teatr və dünya təcrübəsi, dövlət teatrlarında studiyaların fəaliyyəti, bu sahədə təcrübə mübadiləsi ilə bağlı qənaətlərini bölüşdü.

Azərbaycan Dövlət Pantomima Teatrının quruluşçu rejissoru Ceyhun Dadaşov dedi ki, yeni bir aktyor formalaşırsa, yeni bir teatr yaranır. Aktyor və rejissorlar yeni düşüncə tərzinə sahib olmalıdır.

Teatr problemlərinin geniş təhlil edildiyi panel iclasının sonunda iştirakçıların sualları cavablandırıldı, təkliflər dinlənildi. Bununla da forumun birinci iş günü yekunlaşdı.

Forum aprelin 12-də “Konsepsiya və strateji hədəflər” və “Teatr sahəsində insan kapitalının inkişafı” adlı iki panel iclası ilə işini davam etdirəcək.

**Lalə**

# Abidələrin mühafizəsinə cəmiyyət olaraq dəstək verək

Dövlət Xidməti vətəndaşlara müraciət edib

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Bakı şəhərində yerləşən tarix-memarlıq abidələrinin mühafizəsinin gücləndirilməsi, abidələrə qanunsuz müdaxilələrin qarşısının alınması məqsədilə monitorinq aparılır.

Eyni zamanda bir müddət öncə paytaxtda yerləşən tarix-mədəniyyət abidələrinə vurulan məlumat lövhələri də monitorinq edilir.

Bu barədə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən məlumat verilib.

Məlumatda bildirilir ki, aparılan monitorinqlər nəticəsində bəzi tarix-mədəniyyət abidələrinə vurulan məlumat lövhələrinin vurulma texnikası, orada yer alan məlumatlarla bağlı qeyri-dəqiq faktlar aşkar olunub, habelə bəzi abidələrin mühafizəsinin düzgün qurulmadığı müəyyən edilib. Bütün bunlar nəzərə alınmaqla məlumat lövhələrində yer alan informasiyaların təhlil edilərək dəqiqləşdirilməsi, əlavə məlumatların daxil edilməsi və yenilənməsi üçün tədbirlər görülür, həmçinin mühafizə işinin gücləndirilməsi istiqamətində addımlar atılır.

“Bildiririk ki, abidələrin üzərindən məlumat lövhələrinin çıxardılması binanın abidə statusunun itirilməsi deyil, bu lövhələrdə aşkar edilmiş nöqsanlarla bağlıdır. Bu lövhələr araşdırmalar bitdikdən sonra yeniləri ilə əvəzlənəcək. Ölkəmizin tarixi simasının qorunmasına, tarixi abidələrin mühafizəsinə töhfə vermək istəyən hər bir şəxsi, mütəxəssisləri, o cümlədən kütləvi informasiya vasitələrinin nümayəndələrini Dövlət Xidməti ilə sıx əməkdaşlıq etməyə dəvət edir və abidələrin qorunması ilə əlaqədar 147 qaynar xətti ilə əlaqə saxlayaraq məlumat verilməsi xahiş olunur. Vətəndaşlarımızı bir daha tarix-mədəniyyət abidələrimizin qorunmasına, gələcək nəsillərə tam şəkildə çatdırılmasına dəstək göstərməyə, abidələrin mühafizəsi işində fəal iştiraka çağırırıq”, – deyə məlumatda qeyd olunur.

# Kitabxanalara işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsi elan edilir

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanalara işə qəbul üzrə keçirilmiş müsabiqənin müsahibə mərhələsi 15 may 2023-cü il tarixində başlayacaq.

Test imtahanı mərhələsinin nəticələrinə əsasən, keçid balını toplamış 141 namizəd müsabiqənin müsahibə mərhələsində iştirak edəcək. Müsahibə proqramına əsasən, hər bir namizədin iddia etdiyi vəzifə üzrə peşə hazırlığı və bilik səviyyəsi yoxlanılacaq.

Namizədlər müsahibə proqramı ilə Mədəniyyət Nazirliyinin saytındakı “Elanlar” bölməsində müvafiq link vasitəsilə tanış ola bilərlər.

Qısa zamanda namizədlərlə müsahibələrin keçirilmə qrafiki də saytda yerləşdiriləcək.

# Bədii təhsil üzrə məktəb və mərkəzlərə işə qəbulla bağlı müsabiqə və müsahibələr keçiriləcək

Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu Qaydaları” təsdiq edilib. Qaydalara əsasən, məktəb və mərkəzlərə direktorların, tədris işləri üzrə direktor müavinlərinin və müəllimlərin işə qəbulu müsabiqə əsasında həyata keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarət olmaqla iki mərhələdə təşkil olunur. Müsabiqələrin test imtahanı və müsahibə proqramları ilə nazirliyin saytındakı “Elanlar” bölməsində müvafiq link vasitəsilə tanış olmaq olar.

Qaydalara müvafiq olaraq, Mədəniyyət Nazirliyinin tabeliyindəki məktəb və mərkəzlərdə müddətsiz əmək müqaviləsi ilə işləyən direktorların, tədris işləri üzrə direktor müavinlərinin və müəllimlərin işə qəbulla bağlı müsabiqə şərtləri fərqli olan ərazilər üzrə (digər ərazilərdən Bakı şəhərinə, hər hansı bir rayondan Abşeron rayonuna, Gəncə və Sumqayıt şəhərlərinə) yerdəyişməsi müsahibə yolu ilə həyata keçirilir.

Müsabiqə və müsahibələrin keçirilməsi barədə əlavə məlumat veriləcək.

# Azər Paşa Zəfər oğlu Nemətov

Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Azərbaycan teatr sənətinin tanınmış nümayəndəsi, görkəmli rejissor, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, professor Azər Paşa Zəfər oğlu Nemətov 2023-cü il aprelin 9-da ömrünün 76-cı ilində vəfat etmişdir.



Azər Paşa Nemətov 1947-ci il avqustun 13-də Bakı şəhərində anadan olmuşdur. Bülbül adına orta ixtisas musiqi məktəbini bitirdikdən sonra o, 1965–1970-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rejissorluq fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1967-ci ildən Azərbaycan Respublikası Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Verilişləri Komitəsində rejissor assistenti kimi başlayan Azər Paşa Nemətov 1970–1972-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda assistent olmuş, 1973–1974-cü illərdə isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında quruluşçu rejissor işləmişdir. O, 1974–1976-cı illərdə indiki Sankt-Peterburq şəhərində Leninqrad Gənc Tamaşaçılar Teatrında rejissor-stajor olaraq çalışdıqdan sonra 1977-ci ildə Bakıya qayıdaraq fəaliyyətini yenidən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında davam etdirmiş və burada 1990-cı ilədək quruluşçu rejissor, baş rejissor və bədii rəhbər vəzifələrində çalışmış, 1990–1992-ci illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrında quruluşçu rejissor olmuş, 2015-ci ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri – baş rejissoru, 2016-cı ildən isə Teatrın bədii rəhbəri – direktoru vəzifəsini tutmuşdur.

Azər Paşa Nemətov 1992-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri seçilərək ömrünün sonunadək İttifaqa rəhbərlik etmişdir.

Azərbaycan teatr sənətinin inkişafında Azər Paşa Nemətovun yüksək ictimai məsuliyyət hissinə malik və müasir teatr texnologiyalarını ustalıqla mənimsəmiş sənətkar kimi özünəməxsus xidmətləri vardır. Milli Dram Teatrının səhnəsində onun Azərbaycan və dünya dramaturji irsinin dəyərli nümunələrinə quruluş verdiyi tamaşalar daim özünün parlaq rejissor həlli ilə seçilmiş, yenilikçi ruhu sayəsində teatr mühitində rəğbətlə qarşılanmış və mütəxəssislər tərəfindən layiqli qiymətini almışdır. Həmin tamaşalar ölkəmizin hüdudlarından kənarda keçirilən müxtəlif festival və müsabiqələrdə də uğurla nümayiş etdirilmişdir.

Azər Paşa Nemətov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində uzun illər səmərəli pedaqoji fəaliyyət göstərmiş, tədris etdiyi rejissorluq sənətinin əsaslarını yetirmələrinə mənimsətmək üçün qüvvə və bacarığını əsirgəməmişdir.

Respublikanın mədəni-ictimai həyatının fəal iştirakçısı olan Azər Paşa Nemətovun Azərbaycan Teatr Xadimləri İttifaqına rəhbərlik etdiyi illərdə ölkənin teatr həyatında bir çox təqdirəlayiq işlər görülmüşdür.

Azər Paşa Nemətovun Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1987-ci ildə "Əməkdar incəsənət xadimi" və 2002-ci ildə "Xalq artisti" fəxri adlarını almış, 2007-ci ildə müstəqil Azərbaycanın ali mükafatlarından olan "Şöhrət", 2017-ci ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" və 2022-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Görkəmli sənətkar, mahir pedaqoq və səmimi insan Azər Paşa Zəfər oğlu Nemətovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Adil Kərimli
Anar Rzayev
Firəngiz Əlizadə
Fərhad Xəlilov
Şəfiqə Məmmədova
Rasim Balayev
Hacı İsmayılov

# Yaradıcılığın məşəqqətli və zəfərli yollarından keçmiş sənət Paşası

## Xalq artisti Azər Paşa Nemətovla vida mərasimi keçirildi

Azərbaycan milli teatr sənətində, çağdaş rejissorluq məktəbində, ümumilikdə son onilliklərin səhnə proseslərində, sözsüz ki, onun adı ilk sıralarda idi.



Sənətə və səhnəyə məxsusi münasibəti, teatra sevgi və sədaqəti ilə seçilən şəxsiyyət idi Azər Paşa Nemətov.

Onun üçün bütün dostluq və düşmənçilik, sevgi və nifrət, ağ və qara, doğru və yanlış müqayisəsi özündən çox teatra münasibətinə görə müəyyən olunurdu. Birmənalı olaraq o, müasir Azərbaycan teatrının təkrarsız rejissoru idi. Çevik zəkası və təcrübəsi sayəsində hər vəziyyətdə sadiq olduğu sənət əxlaqı və sevgisinə güvənərək mübarizliyini, əzm və qürurunu qorudu. Adına, soyadına və sənət prinsiplərinə daim sadiq qaldı.

Qəlbən bağlı olduğu, hər zaman aktyorlarını alqışlayıb, fərqli tamaşalarına mizan verdiyi səhnədə bu dəfə son çıxışını etdi. Amma sözsüz və səssiz. Bu dəfə haqqında başqaları danışdılar, köks ötürüb göz yaşlarına boğuldular...

Aprelin 10-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının tamaşa salonu yenə dopdolu idi. Sənətsevərlər və sənət dostları ona olan ehtiramlarını son vəfa borcu olaraq bildirmək üçün salona toplaşmışdılar.

Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri, baş rejissoru və direktoru, Xalq artisti Azər Paşa Nemətovla vida mərasimi, onunla son görüş idi.

Səhnədə sənətkarın tabutu önünə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva adından, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi, digər qurumlar adından əklillər qoyulmuşdu.

Vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, mədəniyyət və incəsənət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak edirdi.

Bu məqamda onun illər əvvəl verdiyi müsahibəsindən sözləri xatırladım. "Əlbəttə, hesabatı gündəlik vermək daha yaxşıdır. Çünki insana rahatlıq, xoşbəxtlik



gətirir. Bir də hər gün özü ilə başbaşa qalmağı bacaran adamlar məsuliyyətli, ədalətli olurlar. İnsanın məsuliyyəti və ədaləti varsa, deməli, bütün ömrü boyu könül rahatlığı da olacaq.

Bizim üçün vacib olan könül rahatlığı deyilmi? Mən adi insanam. Tək qalanda düşünürəm ki, sabah, biri gün nə etmək istəyirəm? Və Allaha dua edirəm: arzularımı, planlarımı həyata keçirmək üçün mənə sağlamlıq, güc, ömür ver! Etiraf edim, ömrü boyu tələsən adam olmuşam. Həmişə mənə elə gəlib, nəyisə çatdıra bilməyəcəyəm...".

Haqlı idi. Bütün arzu, həyat dolu yaradıcı insanlar kimi o da nəyisə çatdıra bilməməyin həyəcanı ilə yaşadı ömrünü. Bunu göz yaşları dinmədən, sözləri boğazında qurğuşuna dönə-dönə danışan sənət dostları, aktyorları, uzun illər onunla ittifaqda birlikdə çalışan əməkdaşları dedilər.

Mərasimdə çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova Azər Paşa Nemətovun həyat və yaradıcılığı barədə danışdı, onun Azərbaycan mədəniyyəti, teatr sənəti, rejissorluq məktəbindəki xüsusi yeri və rolundan bəhs etdi.

Bildirildi ki, Azər Paşa Nemətovun bütün yaradıcı, ictimai, eləcə də pedaqoji fəaliyyəti, sənətkar kimi keçdiyi yol Azərbaycan mədəniyyətinə və Azərbaycan dövlətinə xidmətin nümunəsidir. Nazir müavini onun rejissor kimi



yaradıcılığına mədəniyyətimizin böyük hamisi, eyni zamanda sənət bilicisi, Ulu öndər Heydər Əliyevin də yüksək qiymət verdiyini xatırlatdı. Vurğulandı ki, yarım əsrdən çox milli teatr sənətinə xidmət edən Azər Paşa Nemətovun zəngin yaradıcılıq yolu Azərbaycan mədəniyyəti tarixində hər zaman xatırlanacaq.

Azərbaycan teatrı yaşadıqca mərhum sənətkarın da unudulmayacağını deyən Xalq artisti Nurəddin Mehdixanlı onun sənətə və sənətkara sevgisindən, diqqətindən danışdı, özünəməxsus rejissor üslubundan, sənət duyumundan bəhs etdi.

Azərbaycan Milli Konservatoriyasının rektoru Xalq artisti, bəstəkar, Azər Paşa Nemətovun bir çox tamaşalarının musiqi müəllifi Siyavuş Kərimi göz yaşları içində "Səhnə əsərlərinin nümayişindən sonra izləyicilərə təzimə daim Azərlə birgə çıxırdım. İndi o məni tək qoydu", – deyə dost itkisinin ağırlığını dilə gətirdi.

Xalq artisti, Hacı İsmayılov da Azər Paşa Nemətovun Azərbaycan teatrının inkişafı naminə gördüyü işlərdən danışdı, onun həm teatrda, həm də Azərbaycan Teatr Xadimləri İttifaqında gördüyü işlərə nəzər saldı.

Mərhumun ailəsi adından çıxış edən Cəmilə Ağayeva dayısına göstərilən diqqətə, onun sənətinə verilən dəyərə görə dövlət başçısına, Birinci vitse-prezidentə və qədirbilən sənətsevərlərə təşəkkürünü ifadə etdi.

Çıxışlardan sonra sənətkarın cənazəsi həzin musiqinin sədaları altında son mənzilə yola salındı – yüzlərlə tamaşaçının gur alqışları və səssiz göz yaşlarının müşayiətində. Onlar zaman-zaman bu səhnədə fərqli mövzu və janrlı əsərlərə verdiyi quruluşlarına görə alqışlayıb təbrik etdikləri və ya əksinə, müzakirə və mühakimə etdikləri rejissorun son səhnə "mizan"ına, tamaşaçıya sözsüz vidasına belə səs-küylü cavab verdilər.

Hər səhnə əsərinin nümayişi, hər premyeradan sonra səhnəyə – yaradıcı heyətlə birgə tamaşaçılara təzimə çıxardı... Bu dəfə də salon alqışlara qərq oldu. Lap onun arzuladığı kimi dopdolu zal, tər güllərə qərq olmuş səhnə və gur işıqlar altında...

İllər əvvəl etiraf etdiyi "Yaradıcı adam doğulanda bu cür doğulur. Daha doğrusu, onu Allah bu cür yaradır: hər şeylə razılaşmayan, hər şeyi qəbul etməyən... Bu, tale məsələsidir və bizim iradəmizdən kənardadır. Sadə şəkildə desəm, yaratmağı bacaran adamlar xaraktercə qəliz olurlar. Cavan olanda düşünürdüm ki, daha çox işləməliyəm, özümə qarşı bir az da tələbkar olmalıyam. Sonra yaş üstünə yaş gəldi və anladım ki, bunun üçün Allah insana imkan yaratmalıdır" sözləri onun arxasınca enən pərdələrin gətirdiyi yarıqaranlıqda başqa bir kədər hökmü "oxudu"...

Azər Paşa Nemətov II Fəxri xiyabanda torpağa tapşırıldı.

Yaddaşlardakı işıqlı xatirən öləziməsin, yaradıcılığın məşəqqətli, həm də zəfərli yollarından keçmiş sənət Paşası...

Allah rəhmət eləsin.

**H.Nizamiqızı**

# Məcid Behbudovun 150 illiyi ilə bağlı xatirə axşamı keçiriləcək

Bu il Azərbaycan xanəndəlik məktəbinin görkəmli nümayəndəsi Məcid Behbudovun (1873-1945) anadan olmasının 150 illik yubileyidir. Mayın 2-də Beynəlxalq Muğam Mərkəzində xanəndənin yubileyinə həsr olunmuş tədbir keçiriləcək.

Tədbirdə xanəndənin ailəsinin təqdim etdiyi qrammofon valları əsasında repertuarına müraciət olunacaq və gənc xanəndələrin ifasında Məcid Behbudovun vaxtilə ifa etdiyi xalq mahnıları və muğamlar səslənəcək.

Məcid Behbudalı oğlu Behbudov 18 aprel 1873-cü ildə muğamsənət beşiyimiz Şuşa şəhərində dünyaya göz açıb. Uşaqlıqdan məlahətli səsi ilə seçilən Məcid Behbudov gənc yaşlarından xanəndəliyə başlayıb. O, ilk vaxtlar xüsusi məclislərdə, sonralar isə toy şənliklərində iştirak edib, professional xanəndə və opera müğənnisi kimi şöhrət qazanıb.

Dahi bəstəkar Üzeyir Hacıbəyli "Arşın mal alan" operettasının qəhrəmanı tacir Əsgərdə məhz Məcid Behbudovun obrazını yaradıb. İllər sonra isə sənətkarın oğlu, dünya şöhrətli müğənni Rəşid Behbudov bu obraza kinoda əbədi həyat verib.

# Şair İbrahim İlyaslının yubileyi qeyd olunub

Sumqayıt Dövlət Dram Teatrında Azərbaycan Yazıçılar Birliyi Poeziya seksiyasının rəhbəri, Əli Kərim adına Sumqayıt şəhər Poeziya klubunun direktoru şair İbrahim İlyaslının 60 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbir Sumqayıt RMİ-nin təşkilatçılığı, Milli Məclisin Mədəniyyət komitəsinin və Sumqayıt Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə gerçəkləşib.

Şəhər İcra başçısının birinci müavini Teymur Səmədov, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, millət vəkili Müşviq Məmmədli, Tatarıstan Yazıçılar Birliyinin sədri Rıkail Zəydullin, Çuvaşıstan Respublikası (RF) Peşəkar Yazıçılar İttifaqının sədr müavini Marina Karyagina, Dünya Gənc Türk Yazarları Birliyinin başqanı İntiqam Yaşar, "Qazax" Xeyriyyə İctimai Birliyinin sədri professor İlham Pirməmmədov və başqaları yubilyara təbriklərini çatdırıblar.

Şairə AYB-nin fəxri diplomu, Sumqayıt RMİ-nin fəxri fərmanı təqdim olunub.

Sonda çıxış edən yubilyar tədbirin təşkilində əməyi keçənlərə təşəkkür edib, "Zəfər marşı" şeirini oxuyub.

# Xatirələr o qədər çoxdur ki...

## "O, sənətin sütunu dediklərimizdən idi..."

Xalq artisti Azər Paşa Nemətovla vida mərasiminə qatılan mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri onunla bağlı xatirələrini, ürək sözlərini bölüşdülər.

**Xalq artisti Tariyel Qasımov:** "Azər Paşa Nemətov illər öncə Gənc Tamaşaçılar Teatrında bir-birindən maraqlı səhnə əsərlərinə quruluş verib, öz üslubunu, fərqini, novatorluğunu təsdiq edib. Çox savadlı, istedadlı rejissor idi. Teatr Xadimləri İttifaqının rəhbəri kimi də qayğıkeş, diqqətli olub. Azər müəllim nəslindən gələn, atasından gələn aktyor, teatr, səhnə sevgisini üst səviyyədə göstərdi. Xatirimdə işıqlı adam kimi qalacaq. Ruhu şad olsun".

**Xalq artisti Oqtay Mirqasımov:** "Azər Paşa qardaşımızın həyatdan qəfil gedişini ağır itki kimi qarşılayıram. O, əvvəla mənim üçün ona görə çox əzizdir ki, biz gənclikdən dost idik. Mənim şəxsi itkimdir. Teatr da böyük sənətkar itirib. Amma inanıram, ümid edirəm və belə görürəm ki, tələbələri, onunla çiyin-çiyinə çalışan adamlar onun yolunu, xəttini davam etdirəcəklər. Ruhun şad olsun, əziz qardaşım".

**Şair-dramaturq İlqar Fəhmi:** "Elə insanlar var ki, həmin məqamda bəlkə də o itkinin ağrısını hiss eləmir. Amma müəyyən vaxt keçəndən sonra onun yerini hiss edir. Mən düşünürəm ki, onun Azərbaycan teatrında gördüyü işlər – istər Akademik Milli Dram Teatrında, istərsə də Teatr Xadimləri İttifaqında qurduğu sistem gözəl nəticələr vermişdi. Təkcə ittifaqda gənclərin toplanması, laboratoriyaların yaradılması, festivalların təşkili əhəmiyyətli işlər idi. Bu çox ağır itkidir və o, bizim sənətin sütunu dediklərimizdən idi. O boşluq necə dolacaq? Onu zaman göstərəcək".

**Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə:** "Əslində, bu gün çox kədərli gündür. Azərbaycan teatrı iki böyük rejissorunu (Akademik Rus Dram Teatrının rejissoru, Xalq artisti İranə Tağızadə də aprelin 9-da vəfat edib – red.) itirib. Düşünürəm ki, heç bir yaradıcı adam, ələlxüsus da müəyyən vəzifəyə çatandan sonra intriqalarsız alınmır. Bundan yan keçmək mümkün deyil. Amma bütün yaşananlara rəğmən onlar Azərbaycan teatrının formalaşmasında, var olmasında müstəsna xidmətləri olan insanlardır. Ruhları şad olsun".



**Xalq artisti Kazım Abdullayev:** "Bu gün həm bizim kollektivimiz – Milli Dram Teatrı, həm də ümumən teatr ictimaiyyəti və teatrsevərlər üçün ağır gündür. Bir gündə iki böyük rejissoru itirmişik. Azər müəllimlə illərdir ki, çalışıram, tamaşalarında oynayıram. Maraqlı, fərqli, öz yolu olan rejissor idi... Anlayıram, ölüm mütləqdir. Amma adam kədərdən, itkinin ağırlığından qurtula bilmir".

**Xalq artisti Ramiz Həsənoğlu:** "Azər Paşa Azərbaycan teatr sənətində öz izini qoymuş bir adamdır. Teatr sənətimiz üçün böyük itkidir. Gördüyü işlər göz qabağındadır. Onun vaxtilə quruluş verdiyi "Danabaş kəndinin məktəbi" əsəri teatrımızın böyük hadisəsi, uğuru idi. Ondan illər keçdi və fərqli, yeni tamaşalar qoydu ortaya. Hansı ki, hər biri onun rejissor istedad və bacarığını isbatladı. Ruhu şad olsun".

**Xalq artisti İlham Namiq Kamal:** "Məndən xatirələrimi soruşursuz. Onlar o qədər çoxdur ki... O, mənim məktəb yoldaşım olub, birlikdə uşaqlığımızı yada salsaq o qədər gözəl günlər idi. Tale elə gətirdi ki, sənətdə də yollarımız kəsişdi. Fərqli teatrlarda çalışsaq da hər ikimiz sevdiyimiz teatra xidmət elədik. Sonra onun quruluş verdiyi "Mənim ərim dəlidir" tamaşasında baş rolu oynadım... İndi itirə-itirə gəlirik. Mən həm də ümidliyəm, bilirəm ki, gənclər yetişəcək. Amma o sənətkarların öz yeri, öz səviyyəsi var idi. Azər Paşa mənim üçün dünən də, bu gün də, sabah da o işıqlı, yüksək məqamında qalacaq".

**Həmidə**

# TÜRKSOY ölkələrinin UNESCO üzrə milli komissiyaları daha sıx əməkdaşlıq edə bilərlər

## Fəaliyyətin koordinasiyası üzrə növbəti dönəm sədrlik Azərbaycana keçib



Xəbər verdiyimiz kimi, aprelin 7-8-də UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu iclası keçirilib. İclasın açılışı Bakıda, bağlanışı isə Şuşada gerçəkləşib.

İclasda TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə milli komissiyalarının fəaliyyətini əlaqələndirmək üçün 9-cu dönəm sədrlik Türkiyənin UNESCO üzrə Milli Komissiyasından Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasına keçib.

ADA Universitetində reallaşan açılış mərasimində dövlət rəsmiləri, TÜRKSOY ölkələrinin Bakıdakı diplomatları da iştirak ediblər. Universitetin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə iştirakçıları salamlayaraq bu günlərdə ADA Universitetində təlim keçən Afrikanın 10 ölkəsinin UNESCO üzrə milli komissiyalarının nümayəndələrinin də tədbirə qatıldıqlarını diqqətə çatdırıb.

Açılış mərasimində videoformatla çıxış edən xarici işlər naziri Ceyhun Bayramov otuz ilə yaxın Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinə UNESCO-nun araşdırıcı missiyasının göndərilməsinə yaradılan manеələrdən danışıb, hazırda işğaldan azad olunan ərazilərdə aparılan quruculuq işlərindən bəhs edib.

Nazir UNESCO çərçivəsində "Beynəlxalq Türk Dili Günü"nün təsis edilməsi məsələsini xüsusilə vurğulayıb. Bildirib ki, Azərbaycanın təşəbbüsü ilə 16 martda Ankarada keçirilmiş Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün Bəyannaməsində də üzv ölkələrin liderləri UNESCO tərəfindən "Beynəlxalq Türk Dili Günü"nün elan edilməsi ilə bağlı tam dəstəklərini bir daha təsdiq ediblər: "Bu yöndə görülən işlərin müsbət nəticə verəcəyinə və "Beynəlxalq Türk Dili Günü"nün təsis olunmasının UNESCO Baş konfransının 42-ci sessiyasında təsdiqlənəcəyinə inamımızı ifadə edirik".

TÜRKSOY-un baş katibinin müavini Bilal təşkilatın 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan etdiyi Şuşada silsilə tədbirlərin keçiriləcəyini deyib. Bildirib ki, bu tədbirlər Türk dünyasında birlik və əməkdaşlığı bir daha nümayiş etdirəcək.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxışında türk dövlətlərinin zəngin maddi və mənəvi irsinin qorunaraq gələcək nəsillərə çatdırılmasında TÜRKSOY-un mühüm rolunu qeyd edib. Bildirib ki, ötən dövr ərzində Azərbaycanın bir sıra zəngin mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahısına daxil edilib. Biocoğrafi cəhətdən Azərbaycanın unikal bir ərazidə yerləşməsi və bunun nəticəsində müxtəlif ekosistemlərin formalaşması bizə bu ərazilərin bəzilərinin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsinə imkan yaradır. Bununla bağlı transmilli "Hirkan meşələri" nominasiyası hazırlanıb və 2022-ci ildə UNESCO-nun Dünya İrs Komitəsinə təqdim edilib.

Mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli TÜRKSOY-a üzv ölkələrin UNESCO milli komissiyalarının növbəti toplantısının ölkəmizdə keçirilməsinin əhəmiyyətini qeyd edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində Qələbə, torpaqlarımızın işğaldan azad edilməsi təkcə Azərbaycanın deyil, bütövlükdə Türk dünyasının qələbəsidir. Bu qələbədən sonra Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi rəmzi məna daşımaqla yanaşı, türkdilli ölkələr arasında əməkdaşlığın inkişafını və yeni strategiyasını da gündəmə gətirir.

Adil Kərimli bildirib ki, TÜRKSOY və türk dövlətlərinin UNESCO üzrə milli komissiyaları çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi Azərbaycan Mədəniyyət Nazirliyinin prioritet istiqamətlərindən biridir. Azərbaycan təşkilatın üzvü kimi UNESCO-nun prinsip və dəyərlərinin təşviqində öz öhdəliklərinə sadiq qalaraq mühüm layihələr icra etməkdədir. Bu xüsusda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələr Azərbaycanın sərhədləri ilə məhdudlaşmır. Bu istiqamətdə görülən işlər Azərbaycanın ümumbəşəri dəyərlərə verdiyi töhfələri bütün dünyaya nümayiş etdirir.

İclasda UNESCO baş direktorun prioritet Afrika və xarici əlaqələr üzrə müavini Firmin Eduard Matokonun videomüraciəti də iştirakçıların diqqətinə çatdırılıb.

Daha sonra UNESCO üzrə Türkiyə Milli Komissiyasının sədri Öcal Oğuz, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə çıxış ediblər.

Tədbir panel iclaslarla davam edib.

UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyanın baş katibi Seymur Fətəliyevin moderatorluğu ilə keçirilən ilk paneldə ölkəmizin UNESCO-nun icra etdiyi proqram və layihələrə dəstəyi və əməkdaşlıq imkanları müzakirə edilib, həmçinin panel iştirakçılarının bu istiqamətdə təklif və tövsiyələri dinlənilib.

ADA Universitetinin dövlət, xarici və tələbə işləri üzrə prorektorunun müşaviri, İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyevanın moderatorluğu ilə keçirilən növbəti panel mədəni irsin qorunması, elm, təhsil sahəsi üzrə UNESCO çərçivəsində əlaqələrin daha da genişləndirilməsi və birgə beynəlxalq tədbirlərin keçirilməsi mövzularını əhatə edib.

İclasın yekun bəyanatının mətni də razılaşdırılıb. Bəyanat aprelin 8-də Şuşa şəhərində iclasın bağlanış mərasimində qəbul edilib.

# Bakı Xoreoqrafiya Akademiyasında "Ən yaxşı təqdimat"

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) tam orta təhsil pilləsinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Ən yaxşı təqdimat" adlı tədbir keçirilib.

Tədbirdə tam orta təhsil pilləsi şagirdlərinin Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illərdə müxtəlif sahələrdə, o cümlədən mədəniyyət və təhsilin inkişafında görülən işlər, Heydər Əliyevin Azərbaycan balet sənətinə diqqət və qayğısı barədə çıxışları dinlənilib.



Vurğulanıb ki, məhz Heydər Əliyevin incəsənətə, ələlxüsus milli xoreoqrafiyaya, rəqslərə verdiyi böyük dəyərin nəticəsində 1970-ci ildə Azərbaycan Dövlət Rəqs Ansamblı yaradılıb. Azərbaycan rəqs sənətinin daşıyıcılarına böyük diqqət və qayğı göstərilib. Heydər Əliyevin təşəbbüsü ilə 80-ci illərin ortalarında Bakı Xoreoqrafiya Məktəbi üçün xüsusi layihə üzrə bina inşa edilib. Ulu öndərin irsini yaşadan və inkişaf etdirən dövlət başçımız İlham Əliyevin 2014-cü ildə imzaladığı sərəncamla Bakı Xoreoqrafiya Məktəbinin bazasında Bakı Xoreoqrafiya Akademiyası yaradılıb.

Tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Şagirdlərin ifasında rəqs kompozisiyaları nümayiş etdirilib, Ulu öndərə ithaf olunmuş şeir nümunələri səsləndirilib.

# Dirijor pultu arxasında Murtuza Bülbüldür



M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti keçirilib. Konsertdə orkestri gənc dirijor Murtuza Bülbül idarə edib.

Proqramda Lüdviq Van Bethovenin "Eqmont" uvertürası, Edvard Qriqin "Per Günt" süitası (No. 1), Ferens Listin "Prelüdlər" simfonik poeması, Modest Musorqskinin "Keçəl dağda gecə" simfonik lövhəsi (işləyəni Nikolay Rimski-Korsakov), Pyotr İliç Çaykovskinin "Qu gölü" baletindən süita səslənib.

Konsert klassik musiqini sevənlər tərəfindən alqışlarla qarşılanıb.

# Bakı Musiqi Akademiyası Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə əməkdaşlıq edəcək

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Aprelin 7-də BMA-da keçirilən mərasimdə memorandumu akademiyanın rektoru professor Fərhad Bədəlbəyli və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva imzalayıblar.



Mərasimdə TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er, Fonda üzv ölkələrin diplomatları da iştirak ediblər.

Fərhad Bədəlbəyli Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən aparılan işləri yüksək qiymətləndirərək, təşkilatla birgə əməkdaşlığın ümumtürk musiqisinin və incəsənətinin inkişafına önəmli töhfələr verəcəyinə inandığını deyib.

Günay Əfəndiyeva təşkilatın musiqi sahəsində fəaliyyətindən bəhs edib. Bildirib ki, memorandum birgə layihələrin keçirilməsi, təhsildə fərqlənən tələbələrə mükafatların verilməsi və digər məsələlərə imkan yaradır. Fondun əməkdaşlıq etdiyi müxtəlif ali təhsil müəssisələrində Türk dünyası mərkəzlərinin yaradılmasının əhəmiyyətindən bəhs edən Günay Əfəndiyeva belə bir şəbəkənin qurulmasının qarşılıqlı mədəni-mənəvi mübadilələrinin intensivləşməsinə yönələcəyini diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində BMA-nın müəllimləri və tələbələri Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi altında "Baku Chamber Orchestra"nın (bədii rəhbəri Xalq artisti Fərhad Bədəlbəyli, direktoru Xalq artisti Yeganə Axundova) müşayiəti ilə türk xalqlarının milli musiqilərindən nümunələr ifa ediblər.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (24)

### 1980-ci il 26 dekabr

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev respublikanın elm, ədəbiyyat, incəsənət xadimlərinin və istehsalat qabaqcıllarının Dövlət mükafatları ilə təltif edilməsi mərasimində nitq söyləyib.

*"...Bu gün fərəhlə və məmnuniyyətlə qeyd edirik ki, bu tarixi il elm, mədəniyyət və maarif sahəsində də çox böyük nailiyyətlərlə, respublikamızın bütün istiqamətlərdə yeni irəliləyişi ilə əlamətdar olmuşdur... Dövlət mükafatı ən əvvəl laureatların xidmətlərinə verilən qiymətdir. Bu, Azərbaycanın nailiyyətlərində elmi işçilərin xidmətinin, ümumi müvəffəqiyyətlərimizdə ədəbiyyat və incəsənət xadimlərinin xidmətinin yüksək qiymətləndirilməsidir. Dövlət mükafatlarına layiq görülənləri təbrik edərkən eyni zamanda biz respublikanın bütün zəhmət adamlarına, elm, ədəbiyyat və incəsənət xadimlərinə fədakar, nəcib qəhrəmanlıq əməyi üçün dərin təşəkkürümüzü bildiririk".*

*1980-ci ilin Ədəbiyyat, incəsənət və arxitektura sahəsində Dövlət mükafatları ilə yazıçı İmran Qasımov və rejissor Muxtar Dadaşov ("Brejnev Bakıda" sənədli filmi); yazıçı Anar, aktyorlar Səməndər Rzayev və Şəfiqə Məmmədova ("Şəhərin yay günləri" tamaşası); ssenarist Rüstəm İbrahimbəyov, rejissor Rasim Ocaqov, rəssam Kamil Nəcəfzadə, aktyorlar Hacı İsmayılov, David Uplisaşvili ("Ad günü" bədii filmi); eləcə də bəstəkar Tofiq Quliyev, heykəltəraş Əhməd Salikov, ədəbiyyatşünas Yaşar Qarayev, şair Məstan Əliyev təltif olunub. Vəfat etmiş şairlər Əhməd Cəmil və Əliağa Kürçaylının mükafatları onların ailə üzvlərinə təqdim edilib.*

### 1981-ci il 28 yanvar

Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının XXX qurultayında (28-30 yanvar) məruzə ilə çıxış edib. Məruzədə mədəni-maarif işi sahəsində nailiyyətlər və qarşıda duran vəzifələrdən də bəhs edilib.

*"Kütlələrə ideya tərbiyəsi cəhətdən hərtərəfli təsir göstərmək üçün mədəni-maarif müəssisələrinin çox böyük imkanları vardır. Hesabat dövründə 406 yeni klub və mədəniyyət evi, 421 kitabxana, 17 mədəniyyət və istirahət parkı açılmışdır. Kitabxanaların kitab fondu təqribən 7 milyon nüsxə artmışdır. Kənd klub müəssisələrində mindən çox istehsalat-texniki, iqtisadi, kənd təsərrüfatı dərnəyi fəaliyyət göstərir, burada 17 min nəfərdən çox adam məşğul olur, müxtəlif bilik sahələri üzrə 1600 lektoriya işləyir. Bədii özfəaliyyət yaradıcılığının inkişaf etdirilməsinə daha çox qayğı göstərilməyə başlanmışdır, bədii özfəaliyyətdə indi 250 mindən çox zəhmətkeş iştirak edir. Azərbaycan KP MK yaxın illərdə respublikanın hər bir rayonunda tarix-diyarşünaslıq muzeyləri yaratmaq vəzifəsini qarşıya qoymuşdur. İki ildən az müddət ərzində 17 belə muzey açılmışdır.*

*Mədəniyyət Nazirliyi, onun yerli orqanları bütün rayonlarda diyarşünaslıq muzeylərinin fəaliyyət göstərməsi üçün lazımi tədbirlər görməlidir. Biz Azərbaycan xalqının tarix və mədəniyyət abidələrinin mühafizəsinə daha çox diqqət və qayğı göstərməli, bərpa işlərini təkmilləşdirməliyik. Onuncu beşillikdə yazıçılar, bəstəkarlar, rəssamlar, teatr sənəti ustaları, kinematoqrafçılar səmərəli axtarışlar aparmışlar. Azərbaycanın mədəniyyət xadimləri respublikanın gözəl nailiyyətlərinə layiqincə kömək göstərmiş, ən müxtəlif janrlarda bir sıra sanballı əsərlər yaratmış, xalqımızın mənəvi xəzinəsini yeni nailiyyətlərlə zənginləşdirmişlər...".*

***

Mədəniyyət və incəsənət xadimlərinin yaradıcı fəaliyyəti həm respublika, həm də ittifaq (SSRİ) səviyyəsində də qiymətləndirilirdi.

### 1980-ci il 11 iyun

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə teatr sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti, respublikanın Xalq artisti Möhsün Sənani "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib.

### 1980-ci il 31 oktyabr

Sov. İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin qərarı ilə ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1980-ci ilin SSRİ Dövlət mükafatları verilib. Ümumilikdə 18 mükafat verilib.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulan "Min bir gecə" baletinə görə – bəstəkar Fikrət Əmirov (SSRİ Xalq artisti), baletmeyster Nelya Nəzirova (Azərbaycanın Əməkdar incəsənət xadimi), dirijor Nazim Rzayev (Xalq artisti), tamaşanın rəssamı Toğrul Nərimanbəyov (Xalq rəssamı) və əsas rolların ifaçıları Tamilla Şirəliyeva (Xalq artisti), Rafael Qriqoryan (Əməkdar artist) SSRİ Dövlət mükafatına layiq görülüblər.

Həmçinin Düşənbə şəhərində görkəmli tacik yazıçısı Sədrəddin Ayninin abidə kompleksinə görə – memar Ömər Eldarov (Azərbaycanın Əməkdar incəsənət xadimi), arxitektorlar Aleksandr Aqaronov (Azərbaycan) və Rüstəm Kərimov (Tacikistan) SSRİ Dövlət mükafatına layiq görülüblər.

### 1980-ci il 18 dekabr

Təsviri sənət ustaları hazırlanması işində qazanılmış müvəffəqiyyətlərə görə və yaradılmasının 60 illiyi ilə əlaqədar olaraq Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

Təsviri sənət ustaları hazırlanması işində xidmətlərinə görə və Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin 60 illiyi ilə əlaqədar olaraq məktəbin müəllimlərinə fəxri adlar verilib: Əməkdar incəsənət xadimi – Əyyub Hüseynov, Hafiz Məmmədov; Əməkdar rəssam – Rafiq Mehdiyev.

Həmçinin Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin bir qrup müəllimi Ali Sovetin Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Xalq artisti, teatr rejissoru İranə Tağızadə vəfat edib

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının rejissoru Xalq artisti İranə Tağızadə aprelin 9-da vəfat edib.



Mədəniyyət Nazirliyi İranə Tağızadənin vəfatı ilə bağlı nekroloq yayıb. Nekroloqda deyilir:

Azərbaycan mədəniyyətinə, teatr ictimaiyyətinə ağır itki üz verib. Tanınmış teatr rejissoru, Xalq artisti, Prezident təqaüdçüsü İranə Tofiq qızı Tağızadə 2023-cü il aprelin 9-da, 66 yaşında vəfat edib.

İranə Tağızadə 7 may 1957-ci ildə Bakı şəhərində görkəmli kinorejissor Tofiq Tağızadənin ailəsində dünyaya gəlib. 1976-1981-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram rejissoru fakültəsində təhsil alıb.

1984-cü ildən Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında çalışıb. Bu sənət ocağında F.Dostoyevskinin "Karamazov qardaşları", V.Şekspirin "On ikinci gecə", T.Vilyamsın "Arzu tramvayı", Elçinin "Artistin taleyi", "Teleskop və ya yuxuda və reallıqda uçuşlar", M.Kamolettinin "Ah, bu Anna", A.Puşkinin "Çar Saltanın nağılı", R.Şartın "Mənim arvadımın adı Morisdir" və s. tamaşalara quruluş verib. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında quruluş verdiyi Elçinin "Sənətkarın taleyi" tamaşası rəğbətlə qarşılanıb.

İranə Tağızadə teatr sahəsindəki xidmətlərinə görə 2008-ci ildə "Əməkdar incəsənət xadimi", 2013-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Allah rəhmət eləsin.

***




Akademik Rus Dram Teatrının rejissoru Xalq artisti İranə Tağızadə aprelin 10-da paytaxtdakı "Qurd qapısı" qəbiristanlığında dəfn olunub.

Vida mərasimində mərhumun ailə üzvləri, yaxınları ilə yanaşı, mədəniyyət xadimləri də iştirak ediblər.

İranə Tağızadənin məzarı üzərinə Mədəniyyət Nazirliyi, Akademik Rus Dram Teatrı, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi adından əklillər qoyulub.

# Vida sözü

## Xoşbəxt adamın gedişi...

Hamı nə vaxtsa köçüb gedəcək bu dünyadan…
Sadəcə, bir az geci-tezi var…
Sadəcə, bu gedişlərin səbəbi fərqli…
Səbəb kimi gedənlərin özündən sonra qoyduğu xatirələr də fərqli, çeşidli…
Səndən yalnız yaxşılıq görənlərin xatirələri itki yanğısından dolayı sızıltılı, həzin, kövrəklik dolu…
Sənə pisliyi keçənlərin, səndən nəyisə əsirgəyənlərin xatirəsinin rəngi, havasının saflığı onların peşmanlıq və səmimiyyət hissinin dərəcəsindən asılı…
Səndən pislik gördüyünü zənn edənlərin sənin gediş xəbərini eşidərkən duyduqları, etirafları – hakiminin də, müttəhiminin də, vəkilinin də təkcə özü olduğu vicdan məhkəməsinin ədalətinə bağlı…

***



Ötən bazar günü (9 aprel) Xalq artisti, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru və bədii rəhbəri, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə heyətinin sədri, görkəmli rejissor Azər Paşa Nemətov vəfat etdi.

Bütün yanaşı xəstəliklərinə rəğmən, təxminən il yarım öncə keçirdiyi ağır əməliyyatdan sonra da ayağa qalxmağı bacararaq, qəlbindəki teatr sevgisi, düşüncəsindəki yaratmaq təxəyyülünün tükənməzliyi ilə yenidən iş başında idi.

***

Allahdan da, teatr cameəsindən də gizlin deyil, qoy elə bizim oxucular üçün də gizlin qalmasın: Azər Paşa Nemətov bəlkə də son illərdə sənətlə bağlı qərarları, teatrın fəaliyyətində üstün tutduğu prioritetləri, bəzən hətta şəxsiyyəti heç də birmənalı qarşılanmayan yaradıcılıq müəssisəsi rəhbərlərindən biri oldu. Ona görə yox ki, digər sahələrdə, başqa sənət ocaqlarında bütün münasibətlər qaydasındadır, bütün işlər yolunda gedir. Yox. Taleyin gərdişindən, teatr elə bir yerdir ki, sözün, səhnə əsərinin nə olduğundan az-maz başı çıxan çox adam özünü burada rəhbərliyə, qərar sahibi olmağa iddialı sayır; əsər seçimindən tutmuş rol bölgüsünədək yalnız özünün ən düzgün seçim edə biləcəyinə gümanlıdır; istedadı, hansısa uğurlu ifası ilə tanınan kəslərin çoxu da üzdə görünən istedad göstəricilərini qabardıb xislətindəki xıltı, hər hansı səbəbdən qaynaqlanan qərəzini ört-basdır edə bilir. Elə son illər Azər Paşa müəllim də həqiqətin harada bitib, yanlışlığın harada başladığı çox zaman bilinməyən belə qarışıq mühitin tam episentrində idi. Kim bilmir ki, belə olaylar, mətbuata qəsdən yeridilən, sosial şəbəkələrdə sürətlə yayılan birtərəfli ittihamlar yaradıcı insanın enerjisini zəli kimi sormur, onun əsəblərini qıcıqlandırıb birmənalı qarşılanmayan, bəzən isə hətta mübahisəli qərarlar çıxarmağa vəsilə olmur?

Bəlkə də bütün bunlar olmasaydı, həyat dolu, yaratmaq eşqli Azər Paşa Nemətovun ömrü belə qəfil qırılmazdı. Ötən ilin avqustunda 75 illik yubileyi ərəfəsində qəzetimiz üçün ondan müsahibə alanda arzularla bağlı suala cavabında demişdi ki, "ən birinci istəyim cansağlığıdır. İstəyirəm enerjim, həvəsim ömrüm boyu tükənməsin ki, işləyim, teatra xidmət edə bilim. Bir də ki… Ən böyük arzularımdan birinə çatmışam. İllərdir, dua edirdim ki, ay Allah, bircə Qarabağ müharibəsinin bitdiyini görüm, o torpaqlara səfər etmək mənə qismət olsun! Ali Baş Komandanımızın siyasəti, müzəffər Ordumuzun hünəri sayəsində bu arzum da çin oldu! Şuşaya ilk ayaq basanlardan biri də mən oldum...".

***

Özünə yaxın bildiyin tanınmış sima haqq dünyasına qovuşanda istər-istəməz onun həyatı, əməlləri, şəxsiyyəti barədə ötəri də olsa, düşünürsən. Düşünürsən ki, nə yaxşı müsahibələr, söhbətlər var. Nə yaxşı ki, cavabsızlığa ünvanlanan belə suallara cavablar həmin yadigarlarda var: "Əgər soruşsanız ki, xoşbəxtəm, ya yox. Cavab verəcəyəm ki, bəli, mən xoşbəxt adamam. Heç kimin qarşısında baş əyməmişəm, işimin xatirinə belə, kimsəyə yaltaqlıq etməmişəm, düzdür, bu, yaxşı söz deyil, amma bu, belədir. Gözləmədiyim və gözlədiyim zərbələri alanda da möhkəm dayanmışam, əyilməmişəm. Sındırmaq istəyiblər, hətta elə zənn ediblər ki məni sındırıblar da, yenə də yolumdan dönməmişəm, istədiyimə çata bilmişəm. Mənə istəklərimi həyata keçirməyə imkan verməyiblər, yenə də geri çəkilməmişəm. Sonda qalib gəlmişəm...".

…Olsun ki, əcəl məqamı yetişəndə bəlkə də dəqiqələr sürən "gedim-qalım" çabalamasında Ölüm mələyinin əlindən tutmaq, ona "xoş gəlmisən, hazıram, gedək" deməyi bacarmaq da qalibiyyətdir. Nə bilək?... Bu da bir sirri-xuda!...

***

Bu yazını aprelin 10-da səhərçağı yazıram. Sərçələrin cikkiltisi, qumruların qurultusu açıq pəncərədən otağa dolan xəfif küləkli saf yaz havasını fon musiqisi kimi müşayiət edir, təbiətdən zövq almağı bacaran insanın qəlbini pozitiv duyğulara kökləyir. Amma nə acı ki, son günlər bir-birinin ardınca eşitdiyim ölüm xəbərlərinin sarsıntısı, üzərində işlədiyim yazıdan ruhuma köçən qüssə bahar ovqatından könül dolusu zövq almağa qoymur.

Aprelin 10-u, həftənin birinci günü. Bazar ertəsi teatrların iş günü deyil. Yəni həftənin birinci günü az adam teatrın qapısını açar. Azər Paşa müəllim həmin müsahibəsində bunu da demişdi ki, "elə bil gözətçiyəm, hər gün teatrdayam".

Bu gün də o, son dəfə teatra gəldi. Amma direktor otağında əyləşib teatrın səhnə arxasında qalan işləri ilə məşğul olmaq üçün yox. Bir neçə saatlığa səhnəyə çıxdı. Yalnız bircə kərə oynanılan "Son gediş" tamaşasını təqdim etdi. Rejissoru da özü idi, aktyoru da...

Ruhun şad, məkanın cənnət olsun, Azər Paşa müəllim!

"Mədəniyyət" qəzetinin kollektivi və oxucuları adından hörmət və ehtiramla

**Gülcahan Mirməmməd**

# "Mübariz" filminin təqdimatı keçirilib




Biləsuvar rayonunda şəhid Milli Qəhrəman Mübariz İbrahimovun (1988-2010) döyüş yoluna həsr olunan "Mübariz" filminin təqdimatı keçirilib.

Rayonun icra başçısı Faiq Qürbətov çıxış edərək Mübariz İbrahimovun yalnız biləsuvarlıların deyil, qəlbi Vətən eşqi ilə döyünən hər kəsin qürur yeri olduğunu söyləyib.

Milli Qəhrəmanın atası Ağakərim İbrahimov filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlıq edib.

Qeyd edək ki, AzTV-nin istehsalı olan "Mübariz" filminin ssenari müəllifi və baş prodüseri Nicat Mənalı, quruluşçu rejissoru Natiq Novruzovdur. Çəkilişləri cəsur döyüşçünün şəhid olduğu ərazidə aparılan filmdə onun örnək ömür yolundan bəhs olunur.

# Lənkəranda mərhum rəssamın sərgisi keçirilib



Lənkəran Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Lənkəran şəhər Mədəniyyət Mərkəzində mərhum rəssam Kamil Ramazanovun fərdi sərgisi keçirilib.

Regional idarənin rəisi Şahin Şahbazov rəssamın həyat və yaradıcılığından danışıb. Qeyd edib ki, Kamil Ramazanov bu gün həyatda olmasa da, qoyub getdiyi əsərlər ona ikinci həyat yaşadır. Diqqətə çatdırılıb ki, rəssamın sağlığında dəfələrlə fərdi sərgiləri təşkil olunub, əsərləri Nizami adına Ədəbiyyat Muzeyində, İstiqlal, Milli İncəsənət muzeylərində və Azərbaycan Dövlət Rəsm Qalereyasında saxlanılır. Rəssam dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubiley ilə əlaqədar Fransada təşkil olunan sərginin iştirakçısı olub, respublika və ümumittifaq sərgilərində müntəzəm çıxış edib, 1978-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü olub.

Sonda Ş.Şahbazov rəssamın ailə üzvlərinə onun sənət irsini qoruyub saxladıqlarına görə minnətdarlığını bildirib.

Rəssamlar Firudin Quliyev, Adil Əsədli, Şöhrətdin Səbziyev və ailə üzvləri çıxış edərək fikirlərini bölüşüblər, incəsənət ustalarına və dünyadan köçmüş sənət xadimlərinin xatirəsinə göstərilən diqqətə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildiriblər.

Sonda sərgiyə baxış keçirilib. Sərgidə mərhum rəssamın 60-a yaxın əl işi yer alıb.

Kamil Ramazan oğlu Ramazanov 16 aprel 1934-cü ildə Lənkəran şəhərində anadan olub. Onun yaradıcılığı əsasən rəngkarlıq sahəsində yaradılmış əsərlərdən ibarətdir. Süjetli tablo, portret, mənzərə və bir çox maraqlı əsərlərin müəllifi kimi tanınan rəssamın əsərlərində vətənpərvərlik mövzusuna geniş yer ayrılıb.

Rəssam 18 oktyabr 2010-cu ildə Bakıda vəfat edib.

# Əməkdar incəsənət xadimi Nərgiz Şəfiyevanın xatirəsi anılıb

Aprelin 7-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) bəstəkar, musiqişünas, Əməkdar incəsənət xadimi Nərgiz Şəfiyevanın (1940-2020) xatirəsinə həsr olunmuş tədbir keçirilib.

ABİ-nin sədri Xalq artisti, professor Firəngiz Əlizadə giriş sözündə Nərgiz Şəfiyevanın çoxcəhətli yaradıcılığından danışıb, onun Qara Qarayevin istəkli tələbələrindən biri olduğunu, işinə məsuliyyətini, insani keyfiyyətlərini xüsusi qeyd edib.

Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı Nərgiz Şəfiyevanın "Qara Qarayev tələbələrinin xatirəsində" kitabından bəhs edib. ABİ-nin katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova, musiqişünas professor, Əməkdar incəsənət xadimi Fəttah Xalıqzadə Nərgiz Şəfiyevanın həyat və yaradıcılığının müxtəlif məqamlarına diqqət çəkiblər, onun kökü ilə bağlı olduğu Şuşa, Qarabağ xatirəli söhbətlərini yada salıblar.



Qeyd edilib ki, N.Şəfiyeva 1957-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası nəzdində onillik musiqi məktəbini bitirdikdən sonra konservatoriyanın Musiqi nəzəriyyəsi fakültəsinə daxil olub. Bir ildən sonra burada oxumaqla yanaşı, bəstəkarlıq şöbəsinə də qəbul edilib və 1958–1964-cü illərdə dahi bəstəkar Qara Qarayevin sinfində təhsil alıb. Eyni vaxtda iki fakültədə oxuyan N.Şəfiyeva musiqişünaslığın, bəstəkarlığın sirlərini dərindən mənimsəyib. 1962-ci ildə Moskvada gənc bəstəkarların ümumittifaq müsabiqəsində birinci dərəcəli diploma layiq görülüb.

O, fortepiano üçün prelüdlər, silsilə pyeslər, sonatina, sonata, fortepiano üçün "Skertso", böyük simfonik orkestr üçün "Musiqi", "Gün gələr, həftə keçər" silsiləsi (Azərbaycan xalq muğamları əsasında), violonçel, fleyta və arfa üçün "Damlalar", "Mahnı dağlarda qaldı" instrumental kompozisiya və s. əsərlərin müəllifidir. Uzun illər pedaqoq kimi də çalışıb, Bakıdakı 2 saylı yeddiillik uşaq musiqi və Bülbül adına Orta İxtisas Musiqi məktəblərində musiqi nəzəriyyəsi və bəstəkarlıq fənlərindən dərs deyib, "Azərbaycan ladları" dərs vəsaitləri və tövsiyələri, "Qara Qarayev tələbələrinin xatirəsində" toplusunu hazırlayıb nəşr etdirib. Bəstəkar və musiqişünas ABİ-nin fəaliyyətində yaxından iştirak edib. 2015-ci ildə musiqi sahəsindəki xidmətlərinə görə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

Nərgiz Şəfiyeva 2020-ci il aprelin 8-də vəfat edib.

Anım tədbirinin musiqili hissəsində Xalq artisti Ülviyyə Hacıbəyova bəstəkarın fortepiano üçün "6 prelüd" silsiləsini və Qara Qarayevin "Eskiz" əsərini səsləndirib. Əməkdar artist Anar Şuşalı N.Şəfiyevanın Hafiz Şirazinin "Soruşma" qəzəlinə yazdığı "Hafizi anarkən" romansını konsertmeyster Təranə Məmmədovanın müşayiəti ilə ifa edib.

# Xalçalarda quş təsvirləri və Çin heroqlifləri xəttatlığı

## Xalça Muzeyində mühazirə, İncəsənət Muzeyində ustad dərsi

Azərbaycan Milli Xalça Muzeyində "Azərbaycanın qədim incəsənət nümunələrində və XIX-XX əsrlərə aid xalçalarında quş təsvirləri" adlı mühazirə keçirilib.

Muzeydən bildirilib ki, mühazirə sənətşünaslıq üzrə fəlsəfə doktoru Səltənət Rzayeva tərəfindən təqdim olunub.

Mühazirədə Tunc və Dəmir dövrlərinə aid metal, keramika məmulatlarının, həmçinin xalçalarımızın üzərindəki quş təsvirləri, onların daşıdığı mənalar barədə ətraflı məlumat verilib.

***

Azərbaycan Milli İncəsənət Muzeyində "Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından" adlı sərgi çərçivəsində "Xəttatlıq sənəti" adlı ustad dərsi keçirilib.

İlk olaraq iştirakçılara Çin yazısının tarixi, heroqliflərin mənşəyi və xəttatlığın əsas qaydaları ilə bağlı məlumat verilib.

Sonra heroqliflərin fırça ilə yazılması üzrə xəttatlığa dair ustad dərsləri keçirilib.



Xatırladaq ki, martın 29-da açılışı olan sərgi Milli İncəsənət Muzeyinin, Azərbaycan Mədəniyyət Nazirliyinin və Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə ərsəyə gəlib. İyunun 30-dək davam edəcək sərgi təkcə tarixi eksponatlar toplusu deyil, həm də ziyarətçilərin Çin xalqının mədəniyyəti və adət-ənənələri ilə yaxından tanış olması üçün bir fürsətdir.

# Fransalı arxeoloqun Azərbaycanda apardığı tədqiqatlarla bağlı kitab




Fransalı arxeoloq Jak de Morqanın 1896-cı ildə Azərbaycanın cənub bölgəsində apardığı tədqiqatların nəticələri ilə bağlı Parisdə nəşr etdirdiyi "Arxeoloji tədqiqatlar" kitabı fransız dilindən Azərbaycan dilinə tərcümə olunub. Kitab AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun böyük elmi işçisi tarix elmlər doktoru Tufan Axundovun və Dilçilik İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Gülşən Axundovanın redaktəsi ilə çap olunub.

AMEA-dan bildirilib ki, kitabın tərcüməçisi İxtiyar Murtuzayev, nəşrin layihə rəhbəri Cabbar Əliyev, naşiri Akif Dənzizadədir.

Kitabda müəllif gördüyü işləri addım-addım təsvir edir, əldə edilmiş materialların təsnifatını verir. Bununla yanaşı, o, tədqiq etdiyi ərazinin tarixi inkişafı haqqında mülahizələr yürüdür, özünün çəkdiyi çoxlu sayda fotoları, rəsmləri, tərtib etdiyi sxemləri və xəritələri əlavə etməklə maraqlı məlumatlar təqdim edir.

Yeni nəşr arxeoloqlar, etnoqraflar, tarixçilər, sənətşünaslar, eləcə də qədim dövr tarixi və mədəniyyəti ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Heykəltəraş Xanlar Əhmədovun yaradıcılığına baxış

Xanlar Əhməd oğlu Əhmədov – Xalq rəssamı, görkəmli heykəltəraş, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Bakı Xoreoqrafiya Akademiyasının dosenti, bir sözlə, müasir incəsənətimizin parlaq simalarından biri. Bütün bunlar Xanlar Əhmədovun, nə az-nə çox, yarım əsrdən artıq bir dövrdə aktiv yaradıcılıq fəaliyyətinin göstəricisi, həm də zəhmət, səbir və iradənin vəhdəti deməkdir.



Xanlar Əhmədovun qabarlı əllərinin ərsəyə gətirdiyi saysız-hesabsız əsərlərinə yolda gedərkən, tanınmış bir şəxsin məzarını ziyarət edərkən, bir binanı nəzərdən keçirərkən, yəni gündəlik həyatın hər anında rast gələ bilirik. Bəlkə də bu gözəlliklərin müəllifi barədə heç düşünmürük. Lakin sənət camiəsi Xanlar Əhmədov imzasına uzun illərdir bələddir. Dövrünün ideoloji və ictimai-mədəni transformasiyalarını əsərlərində əks etdirən, istər qadın, istər kişi, istərsə də uşaq surətləri yaradarkən heykəltəraş içimizdə olan, yaxud da bizlərə tanış keyfiyyətləri canlı, ifadəli şəkildə verməyə çalışıb.

1946-cı ildə Bakıda dünyaya göz açan Xanlar Əhmədovun rəssamlığa olan ciddi marağı onu Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinə (1961-1966) gətirir. Burada heykəltəraşlığımızın öndə gələn simalarından Həyat Abdullayeva və Cəlal Qaryağdıdan aldığı ixtisas dərsləri Xanlar Əhmədovun üslubuna ötürülən ilk təsirlər idi.

O, peşəkar yaradıcılığa ilk addımlarını hələ tələbə olarkən atır. 1966-1972-ci illərdə Daşkənddə A.Ostrovski adına Rəssamlıq İnstitutunda aldığı ixtisas təhsili onda Şərq üslubunun incəliklərinə, Qərb realistik təsvir təfəkkürünə və akademik tərzinə yiyələnməkdə mühüm mərhələ olur. 1968-ci ildən beynəlxalq sərgilərin iştirakçısına çevrilir, həm dəzgah (rəsm, qrafika, heykəltəraşlıq), həm də monumental (büstlər, xatirə lövhələri, memorial heykəltəraşlıq) əsərləri ilə ölkədə və xaricdə (Fransa, Almaniya, Türkiyə, İran, Polşa, Rusiya, Ukrayna, Özbəkistan və s.) Azərbaycan heykəltəraşlığını uğurla təmsil edir.

1972-1975-ci illərdə Moskva Rəssamlıq Akademiyasında aspirantura pilləsi üzrə təhsilini bitirərkən X.Əhmədov Xalq rəssamı Ömər Eldarovun rəhbərliyi ilə təqdim etdiyi "Lənkəran qadınları" əsəri onun yaradıcılıq yolunda "yaşıl işıq" rolunu oynayır. Ağacdan yonulmuş bu çoxfiqurlu kompozisiya ifadəli ritmi və təsirli plastikası ilə heykəltəraşın uğurlu imtahanı olur. Əsərin 1980-ci ildə V.P.Sisoyev tərəfindən çap edilən alboma daxil edilməsi, həmçinin Rusiya Dövlət Şərq Xalqları İncəsənəti Muzeyinin "qəniməti"nə çevrilməsi X.Əhmədov sənətkarlığının bariz sübutudur.

Heykəltəraş müraciət etdiyi bütün mövzularda, pafosdan uzaq olmağa çalışır, öz reallığı, obraza yaxınlığı və ifadəliliyi ilə seçilən əsərlər yaradır. Sadə əmək adamlarının, müasirlərinin portretlərini hazırlayarkən X.Əhmədov realizmə söykənməklə yanaşı, obrazın daxili aləminə nüfuz edir, xarakterin fərdi açılımında fiziki göstəricilərdən yararlanır. Əksər hallarda düz xətlər və tamamlanmış formalardan imtina, biomorf axar formalar, kobud faktura, inandırıcılıq və təmkinlilik X.Əhmədov kompozisiyaları üçün xarakterikdir. "Tələbə qız", "Kolxozçu qadın", "Sürücü Mirzə", "Gimnast qız", "Fəhlə portreti", "Pəhləvan İsa", "Habil Əliyevin portreti", "Heykəltəraş M.Mirqasımovun portreti" və başqa əsərləri dəfələrlə nüfuzlu sərgilərdə nümayiş etdirilib.

Sənətkarın yaradıcılığında ülvi hisslərin tərənnümünə yönəlmiş əsas mövzu anadır. O, bədii yaradıcılığa məhz bu tipli əsərlərlə başlayıb. Müəllifin "Gənc ana", "Xoşbəxtlik", "Ana", "Ana körpəsi ilə" kompozisiyaları ideal hesab etdiyi mənəvi hisslərlə zəngindir.

X.Əhmədovun Xocalı soyqırımı mövzusuna müraciətini ayrıca vurğulamağa ehtiyac duyuruq. Belə ki, faciənin ildönümündə 20 tunc və 20 qrafik silsilə-kompozisiyanı ərsəyə gətirməsi onun həm də sənətkar yanğısının, vətəndaş cəsarətinin ifadəsi idi. "Yandırılmış qadın", "Didərginlər", "Ana fəryadı", "Donmuşlar", "Qaçqınlar", "Faciə", "Güllə" əsərləri erməni təcavüzkarlarının dinc sakinlərə qarşı törətdikləri qanlı cinayətlərin və erməni vandalizminin bədii dillə ifşasına yönəlmişdi.

Tarix və tarixi şəxsiyyətlər yaradıcılığı boyu X.Əhmədov üçün əsas mövzulardan olub. Müəllifin tarixi simalar "kolleksiyası" xalqımızın uzaq və yaxın keçmişinin, dahi şəxsiyyətlərinin tərənnümünə yönəlib. Heykəltəraşın yaratdığı obrazlar sırasında Ə.Şıxlinski, S.Mehmandarov, R.Rza, N.Gəncəvi, Ə.Vahid, Cavad xan, Tomiris, H.Z.Tağıyev, M.P.Vaqif, M.Ə.Sabir, Ü.Hacıbəyli, Aşıq Şakir, Habil Əliyev, M.İbrahimov, C.Cabbarlı, M.F.Axundzadə, Q.Qarayev kimi tanınmış simaların olması onu bu kontekstdə sərgi etməyə sövq etsə də, daim genişlənməkdə olan bu "şəxsiyyətlər cərgəsi" sonu görünməyən üfüqə bənzəyir...

Son illər yaradıcılıq işləri daha çox Gəncə şəhərində məkan tapan sənətkarın Gəncə Dövlət Filarmoniyasının tağlarında yerləşən Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov, Niyazi, A.Məlikov, həmçinin Gəncə Dövlət Dram Teatrının qarşısında ucaldılan C.Cabbarlı və M.F.Axundzadənin monumentləri, eləcə də "Sarı gəlin" kompozisiyası ifadəli həlli, ətraf mühitlə uyarlılığı baxımından diqqətəlayiq nümunələrdir.

Hazırda işğaldan azad olunmuş torpaqlarımızda keçmiş sənət əsərlərinin bərpasına yönəlmiş fəaliyyəti X.Əhmədovun yaradıcılığında yeni və şanlı məqamdır. Şuşada Bülbülün Ev-Muzeyinin xatirə lövhəsi və heykəltəraşlıq tərtibatında, "Güllələnmiş heykəllər" adı ilə sənət tarixinə yazılan Bülbül və Ü.Hacıbəylinin (N.Dadaşovla birgə) abidələrinin yenidən Şuşada quraşdırılmasında iştirakı və "Şuşa layihəsi" çərçivəsində adı hələ açıqlanmayan bir neçə iş X.Əhmədovun yaradıcılıq kitabında önəmli səhifələrdəndir.

Heykəltəraşın vətən və millət qarşısında xidməti sənətkar məhəbbətiylə ərsəyə gətirdiyi məzarüstü abidələrdə də əks olunur. X.Əhmədov imzasını daşıyan Ə.Elçibəy, M.Hüseynov, M.Araz, S.Abbasəliyev, H.Bağırov, S.Rüstəm, Ə.Şıxlinski və başqalarının memorial abidələri öz lirik-psixoloji təsir qüvvəsi ilə seçilir, onların tipoloji ümumiləşdirməsi isə elegiya təəssüratlarına əsaslanır.

Əsərlərində pafosdan, aldadıcı və aşkar əzəmətli formalardan uzaq olan sənətkar obrazlarının möhtəşəmliyini, monumentallığını onların canlılığında, sərbəst pozalarında, fakturanın aydınlığında görür.

X.Əhmədovun görkəmli şəxsiyyətlərin ev-muzeyləri üçün (C.Cabbarlı, Ə.Şıxlinski, Ə.Əzimzadə, S.Bəhlulzadə, H.Cavid, Bülbül və s.) hazırladığı xatirə lövhələri təkcə tanınma nişanı olmayıb, bütün detalları ilə ithaf edilmiş şəxsiyyətlərin həyat və yaradıcılığının, ictimai fəaliyyətinin qısa, simvolik salnaməsidir.

Sənətkarın Bayılda doğum evinin qarşısında qoyulmuş "Xoşbəxt uşaqlıq" kompozisiyası (Ə.Kərimovla birgə), M.F.Axundzadə adına Milli Kitabxananın fasadını bəzəyən M.Ə.Sabirin (N.Dadaşovla birgə) və R.Rzanın, Cəbrayılda Aşıq Pərinin (rayonun işğalı zamanı erməni vandalları tərəfindən məhv edilib), metronun "İçərişəhər" stansiyasının qarşısında yerləşən H.Z.Tağıyevin və s. monumental abidələri müəllifin yaradıcılıq özünəməxsusluğunun təcəssümüdür.



Sənətdə peşəkarlıq mərhələsinə çoxdan çatmış tişə ustası özünü realistik tərzdə ifadə etməyə üstünlük versə də, yaradıcılığında realizmin fərqli, özünəməxsus formatı təzahür edib. Əsərlərində məzmuna önəm verilməsi, məzmuna uyğun kompozisiya quruluşu, fəlsəfi və simvolik elementlərlə ifadə, tarixiliklə müasirliyin sintezinə cəhd daim bədii axtarışda olan heykəltəraşın sənətini aktual edir.

X.Əhmədovun təsviri sənətin inkişafına verdiyi töhfələr dövlət tərəfindən yüksək qiymətləndirilib, 2002-ci ildə "Əməkdar rəssam", 2006-cı ildə "Xalq rəssamı" fəxri adlarına layiq görülüb.

Aldığı mükəmməl sənət təhsili, uzun illərin zəhməti sayəsində əldə etdiyi bədii təcrübəni gənclərə ötürməkdən rahatlıq tapan X.Əhmədov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətini davam etdirir, yeni heykəltəraşlar nəslinin yetişməsinə töhfəsini verir.

"Həyatda ən qorxulusu qocalmaqdır. Ruhun, ürəyin qocalması... Mən hələ cavanam, çünki ürəyim, ruhum cavandır", – deyən Xanlar Əhmədov həyat kitabının 77-ci səhifəsini vərəqləyir. Onun yaratdığı heykəllər tarixin axarında hər zaman eyni yaşda, eyni görkəmdə qalacaq və müəllifini də əbədi yaşadacaq.

**Xırdaxanım Əliyeva**
**ADMİU-nun II kurs magistrantı**

## Xatirə təqvimi — 12–14 aprel

### Azərbaycan

**12 aprel 1889** – Məşhur xanəndə, Xalq artisti Seyid Şuşinski (Mir Möhsün ağa Seyid İbrahim oğlu; 1889 – 1.11.1965) Füzuli rayonunun Horadiz kəndində anadan olub. 1930-60-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, pedaqoji fəaliyyət göstərib.

**12 aprel 1907** – Tanınmış folklorşünas, dramaturq Məmmədhüseyn Abbasqulu oğlu Təhmasib (1907 – 5.10.1982) anadan olub. Azərbaycan dastan və nağıllarının toplanması və tədqiqində mühüm xidmətləri var. Ssenariləri əsasında "Bir qalanın sirri", "Onu bağışlamaq olarmı?" filmləri çəkilib.

**12 aprel 1912** – Əməkdar artist, aktyor Məmmədağa Ağakərim oğlu Dadaşov (1912 – 3.12.1996) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrının yaradıcılarındandır. "Dədə Qorqud", "Yol əhvalatı" filmlərində çəkilib.

**12 aprel 2013** – Görkəmli aktyor, Xalq artisti Nodar Şaşıqoğlu (Nodar İzzətoviç Şaşıqoğlu; 13.3.1927 – 2013) vəfat edib. Azərbaycan Dövlət Rus Dram Teatrında çalışıb. "Uzaq sahillərdə", "Telefonçu qız" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**13 aprel 1909** – Əməkdar artist, teatr və kino aktyoru Süleyman Məşədi İsmayıl oğlu Tağızadə (1909 – 12.9.1960) Gəncədə doğulub. Akademik Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**13 aprel 1917** – Tanınmış kinooperator, Əməkdar incəsənət xadimi Arif Əmir oğlu Nərimanbəyov (1917 – 16.5.1992) anadan olub. Çəkdiyi filmlər: "Bəxtiyar", "Qızmar günəş altında", "Bir qalanın sirri", "Bizim Cəbiş müəllim", "İnsan məskən salır", "Onun bəlalı sevgisi" və s.

**13 aprel 1922** – Azərbaycan arfa ifaçılığı məktəbinin yaradıcısı, Əməkdar artist Aida Həmdulla qızı Abdullayeva (1922-2010) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**13 aprel 1929** – Şair, Əməkdar incəsənət xadimi Tofiq Mütəllim oğlu Mütəllibov (1929 – 30.10.1992) Naxçıvan şəhərində anadan olub. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**13 aprel 2010** – Prezident İlham Əliyev böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**13 aprel 2012** – Prezident İlham Əliyev Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin 120 illik yubileyi haqqında sərəncam imzalayıb.

**14 aprel 1870** – Görkəmli yazıçı-publisist, maarifçi, dövlət xadimi Nəriman Nərimanov (1870 – 19.3.1925) anadan olub. 1894-cü ildə Bakıda müsəlman əhali üçün ilk kütləvi kitabxananı təşkil edib. "Nadanlıq", "Nadir şah", "Bahadır və Sona", "Şamdan bəy" və s. əsərlərin müəllifidir. Azərbaycanın sovetləşməsindən sonra respublika hökumətinin – Xalq Komissarları Şurasının sədri (1920-1922) olub.

**14 aprel 1907** – Xalq artisti Fatma Qədir qızı Qədri (1907 – 29.2.1968) anadan olub. Səhnə fəaliyyətinə 1927-ci ildə Bakı Türk İşçi Teatrında başlayıb. Rus Dram Teatrında, Milli Dram Teatrında çıxış edib, pedaqoji fəaliyyət göstərib.

**14 aprel 1970** – Əməkdar artist Qaflan Məmmədrza oğlu Muradov (1890-1970) vəfat edib. Ağdam, Füzuli dram teatrlarının aktyoru olub.

### Dünya

**12 aprel 1823** – Rus dramaturqu Aleksandr Nikolayeviç Ostrovski (1823-1886) anadan olub. "Kasıblıq eyib deyil", "Gəlirli yer", "Tufan", "Cehizsiz qız", "Balzaminovun evlənməsi" və s. pyeslərin müəllifidir. Bir sıra pyesləri əsasında filmlər çəkilib.

**12 aprel 1928** – Gürcü opera müğənnisi, SSRİ Xalq artisti Zurab Ancaparidze (1928 -12.4.1997) anadan olub.

**12 aprel 1933** – İspan opera müğənnisi (soprano) Montserrat Kabalye (Caballe; 1933 – 6.10.2018) anadan olub.

**13 aprel 1883** – Rus bəstəkarı və dirijoru Aleksandr Aleksandrov (1883-1946) anadan olub. Keçmiş SSRİ-nin himninin musiqisinin, vətənpərvərlik mahnılarının ("Müqəddəs müharibə" və s.) müəllifidir.

**13 aprel 1906** – İrland yazıçısı və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1969) laureatı Semuel Bekket (Samuel Beckett; 1906-1989) anadan olub. Absurd teatrının yaradıcılarındandır. Bəstəkar Fərəc Qarayev yazıçının "Qodonun intizarında" əsərinə musiqi yazıb.

**14 aprel 1925** – Amerika aktyoru, "Oskar" mükafatçısı Rod Stayger (Rodney Stephen Steiger; 1925-2002) anadan olub.

**14 aprel 1930** – Litva kinorejissoru Vitautas Jalakyaviçus (1930-1996) anadan olub. Rejissorun "Bu şirin söz – azadlıq" filmində azərbaycanlı aktyorlar da çəkilib.

**Hazırladı: V.Orxan**

# Bakıda növbəti Uşaq Kitab Festivalı keçirilib

## "Uşaqların savadlı, vətənpərvər, mənəviyyatlı olması vətənimizin işıqlı gələcəyi deməkdir"



Xəbər verdiyimiz kimi, aprelin 8-11-dək Bakı İdman Sarayında II Uşaq Kitab Festivalı keçirilib. Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan festival "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi (ANAİB), Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə gerçəkləşib.

Açılış mərasimində ANAİB-nin sədri Şəmil Sadiq çıxış edərək sərginin əhəmiyyətindən danışıb, kitabın təbliğatı istiqamətində gördükləri işləri diqqətə çatdırıb: "Ölkəmizin, demək olar bütün aparıcı nəşriyyatları ANAİB-nin üzvüdür. Bölgələrimizdə də kitab tanıtımına başlamışıq. Düşünürəm ki, mütaliə edən, özünü inkişaf etdirmək istəyən uşaqlar yetişdirsək, ölkəmizin işıqlı gələcəyinə töhfə vermiş olarıq. Ölkəmizdə belə bir sərgi təşkil etməklə uşaqlarımızın kitaba olan sevgisini daha da artırmış oluruq. Qarşıdakı illərdə bu festivalı beynəlxalq səviyyədə təşkil etməyi hədəfləyirik".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ölkəmizdə belə sərgilərin keçirilməsinin böyük mədəni hadisə olduğunu söyləyib: "Gələcəyə kitabla addımlamağın ən gözəl nümunəsi şahidi olduğumuz bu festivaldır. İkinci dəfə bu festivalda iştirakımdan çox şadam. Kitabın təbliğatı vacibdir və biz bu yolda davamlı olaraq birgə irəliləməyə çalışmalıyıq".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva ən yaxın, etibarlı, sadiq dostlarının kitablar olduğunu qeyd edib: "Biz kitabla öyrənirik, kamilləşirik, intellektual oluruq və mənəviyyatımız daha da dərinləşir, zənginləşir. Bildiyiniz kimi, bu il Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edirik. Ulu öndər deyirdi ki, "Bizim gələcəyimiz uşaqlarımıza və gənclərimizə nəyi necə öyrətməyimizdən çox asılı olacaq". Uşaqlarımızın savadlı, vətənpərvər, mənəviyyatlı və dünyagörüşünün zəngin olması millətimizin, dövlətimizin, vətənimizin işıqlı gələcəyi deməkdir. Kitab festivalı da məhz buna xidmət edir".

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli festivalın hər il keçiriləcəyini deyib. Bildirib ki, Mədəniyyət Nazirliyi kitaba, mütaliəyə olan marağı daim diqqətdə saxlayır: "Bu gün ANAİB tərəfindən keçirilən növbəti Uşaq Kitab Festivalı Mədəniyyət Nazirliyi və digər dövlət qurumlarının dəstəyi ilə ərsəyə gəlib. Burada məqsəd uşaqlarda daha kiçik yaşlardan mütaliəyə marağı, kitaba sevgini formalaşdırmaqdır. Bu sərginin əhəmiyyəti ondadır ki, burada uşaqların daha kiçik yaşdan sosial şəbəkələrə olan bağlılıqdan ayrılaraq mütaliə mədəniyyətinə yiyələnmələri üçün geniş imkanlar var. Uşaqlarımızın savadlı və vətənpərvər olması millətimizin işıqlı gələcəyi üçün olduqca vacibdir. Bu da kitaba olan bağlılıqdan keçir".



Tədbirdə gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Təhsilin İnkişafı Fondu İdarə heyətinin sədri Elnur Nəsibov, ANAİB İdarə heyətinin üzvü Fatimə Alxaz çıxış edərək festivalın əhəmiyyətini vurğulayıblar.

***

Festivalın təşkilində iştirak edən "Qədim qala" nəşriyyat evinin icraçı direktoru, ANAİB İdarə heyətinin üzvü Şöhlət İxtiyaroğlu bizimlə söhbətində tədbirin özəlliyini diqqətə çatdırdı: "Festivaldan bir neçə ay öncə ANAİB tərəfindən "Mənim kitab daxılım" adlı layihənin icrasına başlanılıb. Layihə çərçivəsində məktəblilərə 20 minə yaxın daxıl paylanılıb. Uşaqlar festival vaxtına qədər həmin daxıllara müəyyən məbləğlər daxil ediblər. İndi isə öz daxıllarını da götürüb kitab bayramına üz tutublar".

Qeyd edək ki, dörd gün davam edən festivalda 20-dən çox nəşriyyat iştirak edib, kitablara 70 faizədək endirim tətbiq olunub. Sərgi çərçivəsində tanınmış ədiblərin iştirakı ilə təqdimatlar, imza mərasimləri, konsert proqramları, şeir, nağıl saatları və ustad dərsləri keçirilib. Yazıçılar Reyhan Yusifqızı, Amin Oruc, Fatimə Alxaz, Zahid Xəlil, Rövşən Abdullaoğlu, qiraətçi Xəzər Süleymanlı və başqaları ilə oxucuların görüşü təşkil olunub. Bundan əlavə, Türkiyədən gəlmiş qonaqlar – yazıçılar Nisa Başaran Çöllü, Suat Turqut, həkim Özge Lokmanın kitab təqdimatı və uşaqlarla görüşü də reallaşıb.



Müsahibim vurğuladı ki, aprelin sonlarında Qubada ikigünlük kitab sərgisi təşkil ediləcək. May ayında isə Ulu öndərin 100 illiyi münasibətilə Naxçıvanda kitab sərgisi keçiriləcək.

**Nurəddin**

№27 (1996)
12 aprel 2023
www.medeniyyet.az

# İpək Yolunun ritm və melodiyaları UNESCO-da səslənib






Xəbər verdiyimiz kimi, UNESCO-nun İpək Yolları Proqramının 35 illiyi aprelin 6-da, Parisdə qurumun mənzil-qərargahında silsilə tədbirlərlə qeyd edilib. Tədbirlər proqramı iştirakçı ölkələrdən Azərbaycan, Çin, Qazaxıstan, Monqolustan və Omanın UNESCO yanında daimi nümayəndəlikləri tərəfindən təşkil edilib.

UNESCO-nun mənzil-qərargahında "İpək Yolu – müxtəliflik, dialoq və sülh" adlı beynəlxalq forum, "İpək Yolunda gənclərin tədqiqat təqaüdü" mövzusunda elmi simpozium keçirilib, İpək Yolu ölkələrinin irsini əks etdirən fotosərgi açılıb.

Silsilə tədbirlər Azərbaycan, Qazaxıstan və Çin incəsənət xadimlərinin rəngarəng konsert proqramı ilə yekunlaşıb.

Konsertdən öncə çıxış edən UNESCO baş direktorunun müavini Qabriela Ramos tarixi İpək Yolu üzərində yerləşən ölkələrin zəngin mədəni irsindən söz açıb.

Sonra təşkilatçı ölkələrin UNESCO-dakı təmsilçiləri çıxış ediblər.

Konsert proqramında ölkələrin musiqi, adət-ənənə, rəqs kimi milli-mədəni irs nümunələri təqdim edilib.

Azərbaycandan pianoçu Səidə Zülfüqarova və fleytaçı Ağarəhim Quliyevin ifasında klassik musiqi parçaları böyük maraqla qarşılanıb. Musiqiçilərimiz Cövdət Hacıyevin "Ballada", türk bəstəkarı Fazil Sayın "Qara torpaq", Fikrət Əmirovun fleyta və fortepiano üçün pyeslərini ifa ediblər. Milli geyimli rəqs duetinin ifasında "Uzundərə" və "Naz eləmə" rəqsləri də zalda xüsusi coşqu yaradıb.

Konsertdə həmçinin Çin və Qazaxıstan təmsilçilərinin maraqlı ifaları səslənib, milli geyimləri nümayiş etdirilib.

Tədbir hər üç ölkənin milli mətbəx nümunələrinin təqdim edildiyi ziyafətlə başa çatıb.

## Azərbaycan Dövlət Simfonik Orkestri Ankarada beynəlxalq festivalda

Türkiyə paytaxtındakı "CSO ADA Ankara" səhnəsində 37-ci Ankara Beynəlxalq Musiqi Festivalı keçirilib. Festivalda Əməkdar artist, dirijor Fuad İbrahimovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri də iştirak edib.





Festivalın ilk konserti Azərbaycan Dövlət Simfonik Orkestrinin iştirakı ilə gerçəkləşib. Konsertin solistləri tanınmış ifaçılar – Xalq artisti Murad Adıgözəlzadə (fortepiano) və Əməkdar artist Elvin Xoca Qəniyev (skripka) olub.

Proqramda Ferit Tüzünün "Çayda çıra", Fikrət Əmirovun violin, piano və orkestr üçün Konserti və Antonin Dvorjakın 9 nömrəli "Yeni dünyadan" simfoniyası səslənib. Bu əsərlərdən əlavə ilk hissənin sonunda Corc Villiamsın "Şindlerin siyahısı" kinofilminə yazdığı musiqi ifa olunub. İfa Türkiyədə zəlzələ zamanı həyatlarını itirmiş insanların xatirəsinə həsr edilib. Konsert "Türk marşı" ilə tamamlanıb.

## Qurani-Kərimdə adları çəkilən bitkilərin rəsmlərinin sərgisi



Pakistanlı alim Şahina Qəzənfər və onun Yeni Zelandiyadan olan həmkarı Syu Vikisonun altı il davam edən əməkdaşlığının nəticəsi olaraq Londonun Kyu Qarden botanika bağında Qurani-Kərimdə adları çəkilən bitkilərin rəsmlərindən ibarət sərgi açılıb.

Botanika bağındakı Şirli Şervud qalereyasında yeni zelandiyalı alim və rəssamın müqəddəs Qurani-Kərimdə adları çəkilən 25 bitkinin tablosu nümayiş etdirilir. Pakistanlı botanik isə onların altında müvafiq Quran ayələrini yazıb.

Şahina Qəzənfər jurnalistlərə müsahibəsində bildirib ki, "Quran bitkiləri: Tarix və mədəniyyət" kitabını araşdırarkən o, müasir ərəb adları olmayan bitkiləri izləmək üçün qədim Mesopotamiya mixi mətnlərinə və aramey və ivrit semitik dillərinə qayıdıb: "Bunları geri qaytarmaq daha çətin idi. Hər bir bitkinin tarixi və mədəni bağlılığı var və biz bu irsi itirməməliyik. Səudiyyə Ərəbistanının Qırmızı dənizi sahilində dağlar çox zəngin və yaşıldır. Bir yerdə tapılan və xüsusi əhəmiyyət kəsb edən bitkilər və ya hər hansı bitki populyasiyaları qorunmalı və öyrənilməlidir".

"Kyu Herbarium" botanika bağında bir neçə il işləyən S.Vikison Quranda adı keçən bitkilərə marağının ilk dəfə Əbu-Dabidə Şeyx Zayed məscidini ziyarəti zamanı yarandığını deyib. "Heyrətamiz məscid binası ilə yanaşı, bütün mərtəbələrdə, sütunlarda və tavanda olan qeyri-adi botanika motivləri məni cəlb etdi. Bundan sonra Birləşmiş Ərəb Əmirlikləri və Omanın səhra və dağlarına səyahət etdim, orada nadir bitki növlərini tapdım. Bu proses illərlə davam etdi. Bitkini dəqiq və estetik şəkildə təsvir etmək üçün onu canlı materialdan işləmək çox vacibdir. Bəzi bitkiləri Yeni Zelandiyadakı evimdə özüm yetişdirdim və ya tapmaq üçün dağlara gedirdim", – deyə alim-rəssam bildirib.

## Ukraynada tarixi-mədəni obyektlərin bərpasına 10 milyard dollar lazımdır

Yaxın on ildə Ukraynada tarixi irs və mədəniyyət obyektlərinin bərpası üçün təxminən 10 milyard dollara ehtiyac olacaq.

Bunu UNESCO-nun baş direktoru Odri Azule bu ölkəyə səfərindən sonra deyib. Səfər çərçivəsində o, mədəni obyektlərə, o cümlədən dağılmış və ya zədələnmiş tikililərə baş çəkib.

UNESCO-nun təsdiqlədiyi məlumatlara görə, 2022-ci ilin 24 fevralında Rusiyanın Ukraynada hərbi əməliyyata başladığı vaxtdan indiyədək bu ölkədə 107 dini obyekt, 21 muzey, 89 tarixi-bədii obyekt, 19 abidə, 12 kitabxana zərər görüb.

## Jurnalistlər üçün ən təhlükəli ölkələr

İraq və Suriyadan sonra jurnalistlər üçün ən təhlükəli ölkə Əfqanıstan hesab olunur. Bu ölkədə jurnalistlərin zorakılıqla qarşılaşması və qətlə yetirilməsi adi hal alıb.

Bu barədə "Sərhədsiz reportyorlar" beynəlxalq təşkilatının hesabatında bildirilir.

Hesabatda deyilir ki, son 20 ildə dünyada 1660 jurnalist qətlə yetirilib. Ölüm hadisələri əsasən İraq, Suriya və Əfqanıstanda baş verib. Bu gün də adıçəkilən hər üç ölkə jurnalistlər üçün təhlükəlidir. İraqda 300, Suriyada isə 280 jurnalist qətlə yetirilib. Jurnalistlər üçün təhlükəli ölkələr siyahısına Yəmən, Somali, Fələstin də əlavə olunub.

Ukraynada davam edən hərbi əməliyyatlar zamanı qətlə yetirilən jurnalistlər adlarla da siyahıya daxil edilib.

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova və muzeyin kollektivi Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru

**Azər Paşa Nemətovun**

vəfatı ilə bağlı mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Əməkdar mədəniyyət işçisi Nüşabə Ələkbərova Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru

**Azər Paşa Nemətovun**

vəfatı ilə bağlı mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Bülbülün Memorial Muzeyinin kollektivi "Mədəniyyət" qəzetinin əməkdaşı Savalan Fərəcova oğlu

**Şamil Fərəczadənin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

## Hərracda əsərləri ən çox satılan rəssam

Aprelin 8-də dünya şöhrətli ispan rəssamı, heykəltəraş Pablo Pikassonun (1881–1973) vəfatının 50-ci ildönümü oldu. Pikassonun ölümündən yarım əsr sonra da onun əsərlərinə böyük dəyər verilir və sağlığında olduğu kimi ən populyar rəssamlardan biridir.

"Frans-Press" agentliyinin hesablamalarına görə, ispan rəssamın 5 əsəri hər biri 100 milyon dollardan yuxarı olmaqla satılıb. Rəssamın hərraclarda 50 milyon dollardan çox qiymət qoyulan əsərinin sayı 16,3 milyon dollardan yuxarı olan əsərinin sayı isə 39-dur.

Pikassonun ən iri hərrac nailiyyəti 1955-ci ildə çəkilmiş "Əlcəzairli qadınlar" ("O" seriyası) adlı rəsm olub. Son 20 il ərzində Pikassonun digər iki əsəri – "Qəlyanlı oğlan" və "Çılpaq qadın, yaşıl yarpaqlar və büst" rəsmləri bir rəssamın hərracda satılan incəsənət əsərlərinin sayına görə rekord qazanıb.

Qeyd edək ki, kubizmin banisi sayılan Pablo Pikasso həmçinin heykəltəraş, qrafik, dizayner, keramikaçı-rəssam və teatr tərtibatçısı kimi tanınıb.

## Rusiya kinosu günləri "Berlin üzərində qanadlar"la başa çatıb

Xəbər verdiyimiz kimi, 5-8 aprel tarixlərində Bakıda Rusiya kinosu günləri keçirilib. Proqramda bədii, sənədli və animasiya filmləri yer alıb. Filmlər Nizami Kino Mərkəzində və Beynəlxalq Muğam Mərkəzində nümayiş olunub.




Rusiya kinosu günləri Nizami Kino Mərkəzində rejissor Konstantin Buslovun "1941. Berlin üzərində qanadlar" filminin nümayişi ilə başa çatıb.

Nümayişdən əvvəl Bakıdakı Rus Evinin (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi) rəhbəri İrek Zinnurov, Rusiyanın Azərbaycandakı Səfirliyinin birinci katibi Pavel Kuznetsov tamaşaçıları salamlayıblar. Layihənin prodüseri Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi Yelena Lebedeva rusiyalı artist və prodüserlərdən ibarət nümayəndə heyətini təqdim edib.

Sonra "1941. Berlin üzərində qanadlar" filmi nümayiş olunub. 2022-ci ildə ekranlara çıxan film 1941-ci ilin avqustunda DB-3 sovet bombardmançı təyyarələrinin bir dəfəyə 1800 km qət edərək Almaniyanın hava məkanına daxil olması və Berlini bombalaması haqqındadır.

Nümayişdən sonra teatr və kino artisti Andrey Xarenko ekran əsərinin yaradılması barədə söhbət açıb.

Qeyd edək ki, Bakıda Rusiya kinosu günləri "ELS prodakşn" prodüser mərkəzinin təşkilatçılığı, RF Xarici İşlər Nazirliyi, Azərbaycanın Mədəniyyət Nazirliyi, Rusiyanın Azərbaycandakı Səfirliyi, Bakıdakı Rus Evi və digər qurumların dəstəyi ilə reallaşıb.




Olaylar, faktlar (12–14 aprel)

### 220 il əvvəl...

**12 aprel 1803-cü ildə** Tiflisdə Car-Balakən bölgəsinin Rusiya tərkibinə qatılması şərtləri və "Andlı öhdəlik haqqında" saziş imzalanıb. Bundan əvvəl (1801) Şəmsəddil və Borçalı mahalları Rusiyaya ilhaq edilmişdi. Car-Balakənin ələ keçirilməsi ilə Rusiyanın Azərbaycan torpaqlarını istilası genişləndi. Rusiya öncə Car-Balakənə nisbi muxtar idarəçilik (camaatlıq) versə də, sonradan onu ləğv etdi.

### 162 il əvvəl...



**12 aprel 1861-ci ildə** ABŞ-də vətəndaş müharibəsi (Şimal-Cənub müharibəsi) başlayıb. Sənaye baxımından inkişaf etmiş şimal ştatları ilə aqrar cənub ştatları arasında başlanan müharibənin iqtisadi səbəbləri ilə yanaşı, mühüm siyasi səbəbi də vardı. Şimal ştatları quldarlığın ləğvinə tərəfdar idilər. Cənub ştatları isə quldarlıq sistemini saxlamağı zəruri sayırdılar. Müharibəyə formal səbəb isə ABŞ-nin o vaxtkı 34 ştatından 11-nin (cənublular) ayrılaraq Quldarlıq Ştatlarının Konfederasiyası elan etməsi oldu. Dörd il sürən müharibə Şimalın Cənub üzərində qələbəsi (1865) ilə başa çatdı.

### 158 il əvvəl...

**14 aprel 1865-ci ildə** ABŞ-da Vətəndaş müharibəsi (Şimal-Cənub müharibəsi) gedişində prezident Avraam Linkolna sui-qəsd olub. Linkoln teatrda olarkən "cənublu"ların nümayəndəsi ona atəş açmışdı. Bir gün sonra o aldığı yaralardan vəfat etdi. Prezident qətlə yetirilsə də, Vətəndaş müharibəsi Şimalın xeyrinə başa çatdı.

### 111 il əvvəl...

**14 aprel 1912-ci ildə** dünyanın o zaman üçün ən böyük gəmisi olan "Titanik" çıxdığı ilk reys zamanı Atlantik okeanını şimalında nəhəng aysberqlə toqquşaraq batıb. Britaniyadan ABŞ-yə hərəkət edən gəmidə (rəsmi qeydiyyata görə) 2200 nəfər vardı. Onlardan 1500 nəfəri xilas etmək mümkün olmadı.

### 92 il əvvəl...

**14 aprel 1931-ci ildə** İspaniyadakı parlament seçkilərində respublikaçıların qələbəsindən sonra başlanan kütləvi iğtişaşlar nəticəsində Kral XIII Alfons ölkədən qaçıb, monarxiya devrilib. İspaniyada başlanan vətəndaş müharibəsi 1939-cu ilədək davam etdi.

### 62 il əvvəl...



**12 aprel 1961-ci ildə** insanın kosmosa ilk uçuşu baş verib. SSRİ-nin təyyarəçi-kosmonavtı Yuri Qaqarin "Vostok" kosmik gəmisində təxminən 2 saat ərzində Yerin ətrafına fırlanaraq geri qayıdıb.

### 29 il əvvəl...

**13 aprel 1994-cü ildə** erməni terrorçuları Azərbaycana qarşı daha bir aksiya həyata keçiriblər. Moskva-Bakı sərnişin qatarının Dağıstan ərazisində partladılması nəticəsində 6 nəfər həlak olub.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 954
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641